# Xalq qəzeti

Xalqın qəzeti!

№ 149 (30553) 18 iyul 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Azərbaycan Avropanın "yaşıl enerji" təchizatçısına da çevrilir



**Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) qlobal miqyasda enerji sisteminin transformasiyasının aparıcı qüvvəsi və əməkdaşlıq üçün başlıca platforma kimi qabaqcıl təcrübə mərkəzi rolunu oynayaraq bu sahədə texnologiya, resurslar və maliyyə imkanları haqqında bilikləri bir yerə toplayan hökumətlərarası təşkilatdır. IRENA dayanıqlı inkişaf, enerjiyə çıxış, enerji təhlükəsizliyi və aşağı karbon emissiyalı iqtisadi artım və rifah hədəflərini rəhbər tutaraq bioenerji, geotermal, hidroenergetika, okean, günəş və külək enerjisi də daxil olmaqla bərpaolunan enerjinin bütün növlərinin geniş yayılmasını, həmçinin davamlı istifadəsini təşviq edir.**



Yarandığı dövrdən indiyə kimi təşkilata 168 ölkə və Avropa İttifaqı (Aİ) üzv qəbul edilib. Azərbaycan isə 2009-cu ildən IRENA-nın üzvlüyünə seçilib və 2014-cü il mayın 2-də Milli Məclisin qərarı ilə bu beynəlxalq təşkilatın nizamnaməsinin ratifikasiyası ilə onun tamhüquqlu üzvü olub. Ötən il yanvarın 14–15-də keçirilən IRENA Assambleyasının 13-cü sessiyasının qərarına əsasən, respublikamız 2023–2024-cü illər üzrə IRENA Şurasına üzv seçilib.

IRENA-nın baş direktoru Françesko La Kamera mediaya müsahibəsində Azərbaycanla bu qurum arasında əməkdaşlığın genişləndirilməsi, enerji keçidinin sürətləndirilməsi, eyni zamanda "yaşıl enerji" texnologiyalarına qlobal investisiyaların yatırılması və Bakının evsahibliyi edəcəyi COP29 barədə fikirlərini bölüşərkən bildirib ki, rəhbəri olduğu təşkilatın fəaliyyəti çox genişdir. Qurumun intellektual potensialı 2025-ci ildə ölkələrə öz milli səviyyələrində verdikləri töhfələri nəzərdən keçirməyə xidmət edir. IRENA, həmçinin Azərbaycanda bərpaolunan enerjiyə sərmayə qoyuluşunun təşviqini gerçəkləşdirir.

**(ardı 8-ci səhifədə)**

## Maraqların kəsişmə dalanı – Zəngəzur dəhlizi



Səhifə ⇨ 4

## Seçkilər beynəlxalq standartlara uyğun keçiriləcək



Səhifə ⇨ 5

## "İki pərdəlik" ifşa



Səhifə ⇨ 4

## ABŞ-də prezident seçkisi: namizədlərin fərqli şansları



Səhifə ⇨ 11

## Mirzoyan "sülh göyərçini" qiyafəsində



### Ermənistan iqtidarının sülh gündəmi və yeni reallıqlar formalaşdırmaq cəhdi

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Nyu-Yorka səfərini onun təmsil etdiyi ölkənin Cənubi Qafqazda sülh qaranquşu kimi təqdimatına hesablanmış siyasi şou da adlandırmaq mümkündür. Burada başqa bir məqsəd Ermənistan üçün dividend toplamaqdır. Elə bir dividend ki, onun yüksəkliyi rəsmi İrəvana Bakı ilə sülh prosesində üstünlüklər qazandırsın.**

A.Mirzoyan ənənəvi ritorikaya baş vurur. Bildirir ki, Ermənistan hökuməti həm ölkə daxilində, həm də regionda sülhə nail olmaq əzmindədir. Nazir bunu Nyu-Yorkda ölkəsinin üçüncü könüllü Milli Hesabatını təqdim edərkən də deyib, sonrakı görüşlərdə də. Mirzoyan BMT-nin davamlı inkişaf gündəliyinin məqsəd və vəzifələrinin həyata keçirilməsində irəliləyişləri ümumiləşdirərək, belə nəticəyə gəlib ki, davamlı inkişafa yalnız güclü demokratik təsisatlar, fundamental insan hüquqlarının, ədalətli cəmiyyətin qorunması və regional sülh yolu ilə nail olmaq mümkündür. Haqqında söz açdığımız ənənəvi ritorika da elə budur.

Bəli, Mirzoyan Hayastanı demokratiya ənənələrinə sadiq ölkə kimi təqdim edir və bu obrazın sülh prosesində Ermənistana dividend qazandıracağına siyasi sərmayə yatırır. Mahiyyətcə həqiqətlərdən uzaqlaşmaq, reallıqlarla manipulyasiya cəhdinə baş vurur. Erməni XİN rəhbəri, əslində, dolayısı ilə xaricdəki bəzi dairələrin və ermənipərəst qüvvələrin anti-Azərbaycan təbliğatının elementlərinə fokuslanır, bu məsələdə ölkəmizin anti-demokratik dövlət kimi təqdimatına yönələn baxışları körükləyir. Məqsədi təxminən belə bir təsəvvür formalaşdırmaqdır: "demokratik Ermənistan" "avtoritar Azərbaycan" üzərində mənəvi baxımdan üstündür və üstünlük özünü sülh prosesində də göstərməlidir. Hələ mövcud trayektoriyada Bakının, guya, barışa razı olmadığı, İrəvanın isə prosesin reallaşmasına can atdığı görüntüsünü yaratmaq istəkləri də var.

Yada salaq ki, Ermənistan iqtidarı Mirzoyanın üzərində dayandığı və barəsində söz açdığımız ritorikadan indiyədək istifadə edib. Ancaq heç vaxt uğur qazanmayıb. Vaxtilə baş nazir Nikol Paşinyan özünü demokratiyanın qladiatoru kimi görmüş, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını səsləndirmiş, elə zənn etmişdi ki, dünya birliyi demokratik təqdimatlara inanıb işğalçılığı leqallaşdırmaq üçün dəstək göstərəcək, hansısa fövqəladə hüquqi əsas qondaracaq. Ancaq 44 günlük müharibənin nəticələri yanlış düşüncənin qorxunc təbəddülatlarını doğurdu ki, durumun ağırlığını Ermənistan dövləti və cəmiyyəti bu gün də çəkməkdədir.

Təbiidir ki, Mirzoyan qeyd etdiklərimiz barədə danışmır və diqqəti ölkəsində 2021-ci ildə keçirilmiş parlament seçkilərinə yönəldir. Əlbəttə, həmin seçkini doğurmuş səbəbdən söz açmayaraq. Çünki başlıca məqsəd az əvvəl də bildirdiyimiz kimi, Ermənistanın, guya, demokratik olan obrazını canlandırmaqdır. Sən demə, sözügedən seçki ölkə demokratiyasının dönməzliyinin təzahürü imiş. Mirzoyanın fikrincə, dönməzlik o qədər yüksək imiş ki, təhlükəsizlik təhdidlərinə baxmayaraq, seçki ədalətli olub.

**(ardı 3-cü səhifədə)**

## Bakıda Fransa əsarətinə qarşı Müstəqillik Hərəkatlarının Qurultayı



Səhifə ⇨ 4

## Yarım ildə kənd 6 milyard manatlıq məhsul yetirib



Səhifə ⇨ 7

## Cüdoçularımız, sizi Olimpiya zirvəsində alqışlamağa hazırıq!




Səhifə ⇨ 11

# Azərbaycan–Rumıniya strateji tərəfdaşlığı

**Buxarest şəhərində Azərbaycan Respublikası və Rumıniyanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**



Azərbaycanın Xarici İşlər Nazirliyindən bildirilib ki, nümayəndə heyətinə nazir müavini Fariz Rzayev, Rumıniya nümayəndə heyətinə dövlət katibi Ana Kristina Tinka rəhbərlik edib.

Siyasi məsləhətləşmələr zamanı Azərbaycan və Rumıniya arasında strateji tərəfdaşlığın gücləndirilməsi, siyasi, iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən strateji enerji və nəqliyyat layihələri ilə bağlı müzakirələr aparılıb.

Cari ilin noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq və görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılıb və bu mötəbər tədbirin iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradacağı bildirilib.

Görüşdə postmüharibə dövründə bölgədəki vəziyyət, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Azərbaycan tərəfindən bölgədə davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə mina problemi, orada həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Tərəflər arasında, həmçinin regional və beynəlxalq məsələlər, eləcə də birgə maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Səfər zamanı F.Rzayev həm də Rumıniyanın digər rəsmi şəxsləri ilə görüşüb, eləcə də beyin mərkəzlərinin nümayəndələri ilə keçirilən tədbirdə çıxış edib.

**XQ**

# Qazaxıstanda qardaşlıq təlimləri başa çatıb







**Qazaxıstanın Məngistay vilayətində iyulun 8-dən 17-dək keçirilən "Birlestik-2024" (Birlik-2024) adlı hərbi təlimlər başa çatıb.**

Qazaxıstan Müdafiə Nazirliyi mətbuat xidmətinin yaydığı məlumata görə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan hərbçilərinin iştirak etdiyi hərbi təlimlər Xəzər dənizi sahilindəki "Oymaşa" poliqonunda keçirilib. Təlimlərə bu ölkələrdən 4 minə yaxın əsgər, o cümlədən 700-dək hərbi texnika cəlb olunub.

Hərbi təlimləri Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistanın müdafiə nazirləri, 15 xarici ölkənin Qazaxıstandakı hərbi attaşe aparatının rəhbərləri izləyiblər.

Səfər çərçivəsində Qazaxıstanın müdafiə naziri, general-polkovnik Ruslan Jaksılıkov Zakir Həsənovla görüşüb, ölkələr arasında hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunub.

Təlimlərin başa çatması münasibəti ilə keçirilən mərasimdə iştirakçı ölkələrin yüksək səviyyəli hərbçiləri təlimləri, iştirakçıların müasir hərbi texnikadan səmərəli istifadə bacarığını, həmçinin hərbi qulluqçuların professionallığını müsbət qiymətləndiriblər.

Nazirliyin məlumatında qeyd olunur ki, 5 ölkənin hərbçiləri "silahlı münaqişənin lokallaşdırılması" üçün şərti terrorçular tərəfindən tutulan adamın azad edilməsi, Xəzər dənizi akvatoriyasında qeyri-qanuni hərbi dəstələrin zərərsizləşdirilməsi, dənizin təhlükəsizliyinin təmin olunması və infrastrukturun qorunması üzrə birgə əməliyyatlar həyata keçiriblər. "Münaqişənin lokallaşdırılması" əməliyyatında quru və hava kəşfiyyatı hərbçiləri, xüsusi dəniz təyinatlıları, artilleriya ekipajları, hücum və tank bölmələri, aviasiya və gəmilər iştirak ediblər. Ssenariyə əsasən, Azərbaycan Hərbi-hava qüvvələrinin paraşüt-desant və axtarış-xilasetmə qrupları vurulan hərbi helikopterin ekipajını döyüş sahəsindən təxliyə ediblər.

Bağlanış mərasimində təlimlərdə iştirak edən hərbçilər medallarla və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin Mərkəzi Asiya müxbiri**

**Astana**

# Şuşada qadınlar konfransı



**Şuşada "İslam dünyasında qadınlar: Ənənələr və çağırışlar" mövzusunda ikigünlük konfrans keçirilir. İlk gündə iştirakçılar şəhərin tarixi məkanları və təbiət abidələri ilə tanış olublar.**

Qonaqlar əvvəlcə "İsa bulağı" istirahət kompleksində bərpa işləri ilə tanış olublar. Onlara məlumat verilib ki, Vətən müharibəsindən sonra İsa bulağı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi işğalçıların qəsdlərindən təmizləyərək bərpa edib. Bulağın özü mərmərdən hazırlanıb, "İsa bulağı" sözləri klassik qrafika üslubunda yazılıb. Tarixi çeşmənin axarı təmizlənib zəifləmiş gözü açılıb. Bulağın ətrafındakı istirahət mərkəzi və restoran milli üslubda təmir edilib, ərazidə abadlıq işləri aparılıb.

Sonra konfrans iştirakçıları Qarabağ xanının vəziri, şair Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində olublar. Onlara bildirilib ki, 1 gün sonra burada keçiriləcək poeziya bayramına hazırlıq başa çatdırılıb. Şuşa qala divarları ilə tanışlıq zamanı ziyarətçilərə Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Qeyd edilib ki, Pənahəli xanın inşa etdirdiyi qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, qəhrəmanlıq rəmzi olub. İşğal dövründə qala divarları da erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada da təmir-bərpa işləri aparılıb.

Gəzinti zamanı işğal dövründə mədəniyyət abidələrimizə ermənilərin vurduqları saysız-hesabsız ziyan, qədim artefaktların saxtalaşdırılması barədə geniş bilgi verilib. Bildirilib ki, Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. İnfrastrukturun qurulması ilə yanaşı, şəhərin əsl simasının, tarixi və mədəniyyət abidələrinin bərpasına start verilib.

Daha sonra Cıdır düzünə gələn qonaqlar buradan açılan əsrarəngiz təbiət mənzərəsini seyr ediblər. Günün sonunda konfrans iştirakçıları üçün konsert proqramı təqdim olunub.

**Zərifə HÜSEYNOVA**
**XQ**

**Şuşa**

# "Paris-2024"ün Azərbaycan bayraqdarları

**Azərbaycanın "Paris-2024" Yay Olimpiya Oyunlarındakı bayraqdarları bəlli olub.**



İyulun 26-da keçiriləcək açılış mərasimində bu vəzifəni qadın cüdoçu Gültac Məmmədəliyeva və boksçu Məhəmməd Abdullayev yerinə yetirəcəklər.

Qeyd edək ki, "Paris-2024" Yay Olimpiya Oyunlarında Azərbaycanı 48 idmançı ilə təmsil edəcək. Oyunların açılışı iyulun 26-da, bağlanışı isə avqustun 11-də olacaq.




## Millimizin Olimpiya geyimləri



**"Paris-2024" Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan idmançılarının yolasalma mərasimində onların vahid rəsmi parad geyimi və idman forması təqdim olunub.**

Yeni geyim dəsti Olimpiya komandasının Milli Gimnastika Arenasında təşkil olunan yolasalma mərasimi zamanı ictimaiyyətə nümayiş etdirilib.

Olimpiada üçün xüsusi dizaynla hazırlanmış formalar ağ, tünd göy, çəhrayı və yaşıl rəngdədir. Geyim dəstlərinin üzərində Azərbaycan bayrağı, gerbi və Xarıbülbül əks olunub.

Xatırladaq ki, "Paris-2024" Yay Olimpiya Oyunlarında Azərbaycan 48 idmançı ilə təmsil olunacaq. Oyunların açılışı iyulun 26-da, bağlanışı isə avqustun 11-də olacaq.

**XQ**

# Vyetnam TDT ölkələri ilə əməkdaşlığı gücləndirir

**Vyetnam Asiya və Avropa arasında yerləşən və onları birləşdirən Türk Dövlətləri Təşkilatının üzvləri ilə əməkdaşlığı hər zaman yüksək qiymətləndirir, əlaqələri daha da gücləndirmək istəyir.**




Vyetnam Xəbər Agentliyi xəbər verir ki, bu sözləri Vyetnamın Prezidenti To Lam Azərbaycan, Türkiyə və Qazaxıstanın Hanoydakı səfirləri ilə görüş zamanı deyib. O, Vyetnamın Azərbaycan, Türkiyə və Qazaxıstan ilə ənənəvi dostluğunun, çoxşaxəli əməkdaşlığının mütəmadi görüşlər sayəsində bütün səviyyələrdə möhkəmləndiyini diqqətə çatdırıb, yüksək səviyyəli təmasların davam etdirilməsinin vacibliyini vurğulayıb.

Vyetnam və Türk dövlətləri arasında BMT də daxil olmaqla, beynəlxalq və regional platformalarda səmərəli əlaqələndirmənin, qarşılıqlı dəstəyin davamlı olmasının əhəmiyyətini vurğulayan Prezident To Lam diqqətə çatdırıb ki, ölkəsinin Azərbaycan, Türkiyə və Qazaxıstanla iqtisadi-ticari tərəfdaşlığı davamlı inkişaf edir, ticarət dövriyyəsi artır. Bununla belə, Vyetnamın bu 3 ölkə ilə iqtisadi-ticari əlaqələri, xüsusən də nəqliyyat, kənd təsərrüfatı, təhsil, mədəniyyət, idman, turizm sahələrində və regionlararası əməkdaşlığı mövcud potensialı əks etdirmir. O, Türk Dövlət Təşkilatlarından olan sahibkarlar üçün biznes və investisiya fəaliyyəti üçün Vyetnamda ən yaxşı imkanların yaradılacağını bildirib.

Bu il Vyetnamın sabiq prezidenti Ho Şi Minin Azərbaycana səfərinin 65-ci ildönümü olduğunu diqqətə çatdıran Azərbaycanın Vyetnamdakı səfiri Şövqi Mehdizadə həmin səfərin iki xalq arasında dostluğun və tərəfdaşlığın, xüsusən də neft-qaz sahəsində əməkdaşlığın əsasını qoyduğunu, səfərdən sonra xeyli vyetnamlı gəncin ölkəmizdə sözügedən sahədə təhsil alaraq qabaqcıl mütəxəssislər kimi yetişdiklərini deyib. O, Azərbaycanın Hanoydakı səfirliyinin bu münasibətlə müxtəlif tədbirlər keçirməyi planlaşdırdığını bildirib.

Görüşdə Türkiyənin və Qazaxıstanın səfirləri Korhan Kemik və Kanat Tumiş ölkələrinin Vyetnamla əlaqələrindən danışıblar.

**XQ**

IV məqalə

*Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq!*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

# Şuşa Bəyannaməsindən Qarabağ Bəyannaməsinədək



## Türk dünyasının inteqrasiyasına doğru

Şuşa və Qarabağ bəyannamələrini geniş geosiyasi kontekstdə təhlil etməyə çalışdığımız yəqin ki, dəyərli oxucularımıza əyan olmuşdur. Ana tezis belədir: Şuşa Bəyannaməsi iki qardaş dövlətin həm ikitərəfli, həm də regional miqyasda strateji əməkdaşlığının siyasi-hüquqi və tarixi manifestidirsə, Qarabağ Bəyannaməsi türk dünyasının multiregional miqyasda strateji və perspektivli əməkdaşlığının (inteqrasiyası da deyə bilərik – F.Q.) siyasi-hüquqi və tarixi manifestidir. Bu yüksəlişin siyasi, ideoloji və mənəvi təməli, stimulverici faktoru "bir millət, iki dövlət" kəlamıdır. Türk dövlətlərinin münasibətlərinin nüvə məzmunu bu kəlamda ifadə olunmuşdur! Yüksəlişin dövlətçilik aspektində hərəkətverici qüvvəsi Azərbaycanda müstəqil dövlət quruculuğunun ümumi ruhu və strateji hədəfidir! Bu prosesin aparıcı fenomeni Prezident İlham Əliyevin liderlik nümunəsidir! Məhz bütün bunlara görə, türk dövlətlərinin təşkilatlanmasının siyasi, hüquqi və mənəvi-ideoloji rəmzləşməsi Naxçıvandan başladı, Şuşada konkret strateji sənəddə məzmunlaşdı və yenə də Şuşada Türk dünyasının strateji əməkdaşlıq manifesti səviyyəsinə yüksəldi.

Baxın: ideya qaynağı – Azərbaycanın Ümummilli lideri, siyasi təşkilatlanma rəmzi- Azərbaycan (2009-cu il Naxçıvan Bəyannaməsi), türk dövlətlərinin əməkdaşlığının ( həm də müttəfiqliyinin) siyasi, hüquqi, mənəvi məkanı – Azərbaycan (iki Şuşa bəyannamələri). Deməli, bu, Azərbaycanın müstəqil dövlətçiliyinin ruhudur! Biz "Şuşadan – Şuşaya" metaforasını (məcazını) da işlədə bilərdik. Lakin dövlətçilik və müttəfiqliyin miqyası baxımından əgər Azərbaycan – Türkiyə strateji müttəfiqliyinin rəmzi Şuşa şəhəridirsə, sonrakı mərhələdə Şuşa, bütövlükdə, Qarabağı və Azərbaycanı təmsil edən məkandır. Bu keyfiyyətdə Şuşa türk dövlətlərinin əməkdaşlığı və müttəfiqliyinin rəmzi olmuşdur. "Bir millət, iki dövlət" kəlamının dühalığı bizi iki qardaş dövlətin müttəfiqliyindən Türk dünyasının əməkdaşlığına gətirib çıxardı! Yol davam edir.

Qarabağ Bəyannaməsinin bütün siyasi, geosiyasi, hüquqi, mənəvi və ideoloji məzmun yükü vurğuladığımız ideya təkamülündən qaynaqlanır – "bir millət, iki dövlət"dən "türk dünyasının inteqrasiyası"na doğru!

## Qarabağ türk dünyasının coğrafiya və əməkdaşlıq rəmzi kimi

Prezident İlham Əliyev "Qarabağ Azərbaycandır!" kəlamı ilə müstəqil dövlətçiliyimizin siyasi-ideoloji aspektində tarixi dönüş etmişdir. Faktiki olaraq Qarabağ "bir millər, iki dövlət" kəlamının müəyyən mərhələdə əyaniləşməsinin təsdiqidir! Daha geniş anlamda "Qarabağ Azərbaycandır!" kəlamı ərazi bütövlüyünün indiki mərhələdə rəmzidir. Bu kəlamda potensial olaraq Azərbaycan dövlətinin daim bütöv və suveren olacağına böyük inam ifadə olunmuşdur! "Qarabağ Azərbaycandır!" kəlamı bütün türk dünyasına səslənişdir, yəni türk dövlətçiliyi diridir, onu yaşatmaq və inkişaf etdirmək bizim əcdadlardan qalmış məsuliyyətimiz, vəzifəmizdir! Həm də "Qarabağ Azərbaycandır!" kəlamı bu mənada Azərbaycanın həmişə bu prosesdə fəal olacağı, aparıcı rol oynayacağı mənasını ehtiva edir.

Aydındır ki, "Qarabağ Azərbaycandır!" kəlamından Qarabağ Bəyannaməsinə təbii bir "yol" vardır. Qarabağ Bəyannaməsi həmin kəlamın siyasi, hüquqi, mənəvi və ideoloji gerçəkləşməsi, əyaniləşməsidir. Bəyannamənin məzmunundan və məqsədindən görünür ki, İlham Əliyevin həmin kəlamının siyasi, hüquqi və mənəvi-ideoloji potensialı çox geniş və zəngindir! Buradan o da aydın olur ki, öncəki məqalədə bəndlər üzrə verdiyimiz bəyannamənin əsaslandırılmasının ciddi ideya təməli mövcuddur.

Geosiyasi baxımdan başlıca məqamlardan biri ondan ibarətdir ki, Qarabağ Bəyannaməsi iki aspektdə araşdırma üçün çox maraqlıdır.

Birinci, Qarabağ Bəyannaməsi Azərbaycanın xarici siyasətinin yeni tarixi dövrdə çoxistiqamətlilik və multiregionallıq kontekstində böyük uğurudur.

İkinci, Qarabağ Bəyannaməsi türk dövlətlərinin strateji münasibətlərinin məzmunu, məqsədi və hədəflərinin siyasi və hüquqi olaraq əsaslandırılması və konkretləşməsidir.

## Qarabağ Bəyannaməsi yeni mərhələnin uğuru kimi

Şübhə yoxdur ki, Azərbaycan Prezidentinin yeritdiyi siyasət bu sənədin meydana gəlməsində həlledici rol oynamışdır. Faktlar bu tezisi təsdiqləyir. Prezident İlham Əliyev ardıcıl olaraq türk dövlətlərinin əməkdaşlığına xidmət edən siyasi-diplomatik addımlar atır. Bu fəaliyyət Çin, Pakistan, Mərkəzi Asiya, Qafqaz, Yaxın Şərq, Balkanlar və Avropa Birliyi geosiyasi məkanlarını əhatə edir. İlham Əliyev türk dövlətlərinə səfərlər edir və maraqlı müzakirələr aparır. Hər bir səfərdən sonra əməkdaşlıq haqqında sənədlər imzalanır. Qazaxstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və hətta Tacikistan Azərbaycan Prezidentinin diqqət mərkəzindən kənarda qalmır. Bu dövlətlərin hər biri ilə imzalanmış çoxlu sayda saziş və müqavilə barədə KİV-də kifayət qədər geniş informasiyalar və təhlillər verilmişdir.

İlham Əliyev Cənubi Qafqazda Gürcüstanla əməkdaşlıqla Türk Dövlətləri Təşkilatı (TDT) daxilində əməkdaşlıq arasında həmişə uzlaşma, bir-birini tamamlama yaratmağa çalışmışdır. Və bu istiqamətdə ciddi uğurlara nail olmuşdur. Rəsmi Tbilisi TDT ilə münasibətlərə son dərəcə ciddi əhəmiyyət verməyə başlamışdır.

Türkiyə haqqında ayrıca danışmaq olar. Azərbaycanın xarici siyasətində yeni tarixi dövrdə Türkiyə istiqaməti əsas yeri tutur. Ankara – Bakı xəttində intensiv və nəticəverici proseslər gedir. Elə bir sahə yoxdur ki, bu iki qardaş dövlət hüquq və ədalət əsasında əməkdaşlıq etməsinlər. Azərbaycan və Türkiyə xarici siyasətlərini yeni tarixi mərhələdə daha geniş geosiyasi məkanda koordinasiya edirlər. Onların əməkdaşlığı regionu, regionlararası məkanı, beynəlxalq təşkilatları, qlobal miqyası əhatə etməkdədir. Cənubi Qafqazda bu iki dövlət sülh, əməkdaşlıq və təhlükəsizlik uğrunda necə çiyin-çiyinə mübarizə aparırlarsa, Afrikada, Sakit okean hövzəsində eyni əzm və qətiyyətlə müstəmləkəçiliyə qarşı duruş sərgiləyirlər. Azərbaycan və Türkiyə Avropada İslamofobiyaya qarşı birgə dayanmışlar, Yaxın Şərqdə məzlumların müdafiəsinə birgə qalxmaqdadırlar.

Azərbaycan – Türkiyə əlaqələrinin yeni tarixi dövrdə bu cür məzmunlaşması və yeni hədəflərə doğru inamla irəliləməsində Prezident İlham Əliyevin siyasi-diplomatik məharəti və xarici siyasətin prioritetlərini böyük uğurla həyata keçirməsi əsas rol oynamaqdadır. Qarabağ Bəyannaməsində vurğulandığı kimi, İlham Əliyeni liderliyi türk dünyasını birləşdirir!

Məsələnin siyasi və geosiyasi baxımdan maraqlı və əhəmiyyətli tərəfi bu faktlardan aydın görünür. Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasəti regional miqyası artıq multiregional miqyasda türk dünyasının inteqrasiyasına stimul verir, onu konkret sferalar üzrə məzmunlaşdırır. Qarabağ Bəyannaməsində türk dövlətlərinin əməkdaşlığı ilə əlaqədar konkret müddəaların olması həmin məqamlarla bağlıdır. Məsələn, bəyannamədə "böyük dil layihəsi" çox əhəmiyyətli vurğudur! Təhsil, elm, mədəniyyətlə bağlı konkret fikirlərin yer alması adi hadisə deyildir. Təhlükəsizliyə, hərbi əməkdaşlığa ayrıca bənd ayrılmasının strateji mənası çox böyükdür! Buradan yuxarıda vurğuladığımız ikinci aspektin aktuallığı məntiqi olaraq alınır.

## Qarabağ Bəyannaməsi Türk birliyinin fəlsəfəsi kimi

Bəyannamə özündə TDT-nin yeni tarixi dövrdə strukturlaşması və funksionallaşmasının ümumi müddəalarını əks etdirir. Məsələ çox geniş aspektdə təqdim olunur. Dövlətlərin, cəmiyyətlərin, ayrı-ayrı sosial-siyasi institutların, təşkilatların, ictimai qurumların fəaliyyətlərinin koordinasiya etmələrinin ümumi çərçivələrini müəyyən edir.

Sənəddə yer almış bir neçə bəndə baxaq. Bəyannamənin 2-ci bəndində yazılmışdır: "Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyini bir daha vurğulayırlar". Buradan görünür ki, nəzərdə tutulan və bütün sferaları əhatə edən əməkdaşlıq strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsinə xidmət edir.

Bunun ardınca, sənədin 3-cü bəndində deyilir: "Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyini qeyd edirlər". Yəni türk dövlətləri qlobal miqyasda daha iddialı məqsədlər qarşıya qoymaq mərhələsinə keçmişlər. Bunun üçün onlar regional əməkdaşlıq formatlarından multiregional əməkdaşlıq formatlarına keçməyi planlaşdırırlar.

Nəhayət, 2-ci və 3-cü bəndlərin məqsəd baxımından daha aydın ifadələri 4-cü bənddə verilmişdir. Orada vurğulanır: "Türk dövlətlərinin regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında əvəzsiz rolu nəzərə alınmaqla, müvafiq nəqliyyat infrastrukturunun və səmərəli transregional dəhlizlərin yaradılması yolu ilə türk dövlətləri arasında bağlılığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar". TDT regional və qlobal miqyasda müxtəlif sferalar üzrə yeni səviyyədə yer tutmaq və rol oynamaq niyyətindədir. Onların önündə, təbii ki, ticarət və iqtisadiyyat gəlir. Bu faktorlar müasir mərhələdə hər bir dövlət üçün son dərəcə əhəmiyyətli amilə çevrilmişdir. TDT qarşısına qoyduğu bu nəhəng məqsədə çatmağın iki aspektdə mexanizmlərini də müəyyən etmişdir. Onlar uyğun nəqliyyat strukturları və transregional dəhlizlərin yaradılmasıdır. Bunların hər ikisi çox aktual və əhəmiyyətli əməkdaşlıq parametrləridir.

Bizim üçün daha maraqlısı və əhəmiyyətlisi ondan ibarətdir ki, həm yeni nəqliyyat infrastrukturunun, həm də transregional dəhlizlərin yaradılmasında Azərbaycan aparıcı rol oynayır. Azərbaycan Prezidentinin yeni tarix dövr üçün müəyyən etdiyi xarici siyasətin prioritet istiqamətləri sırasında vurğuladığımız iki istiqamət xüsusi yer tutur. Deməli, Qarabağ Bəyannaməsində qeyd edilən bu iki məqam Azərbaycanın çoxşaxəli xarici siyasətinin gerçəkliklərindən biridir.

Przident İlham Əliyev hər iki istiqamət üzrə (yeni nəqliyyat infrastrukturunun və transregional dəhlizlərin yaradılması) siyasi-diplomatik təşəbbüslərini kəsintisiz davam etdirir. Son bir ildə Azərbaycan Prezidentinin vurğulanan istiqamətlərdə atdığı addımlara nəzər salmaq kifayətdir ki, tezisin doğruluğuna qəti əminlik yaransın.

(ardı var)

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Mirzoyan "sülh göyərçini" qiyafəsində

**(əvvəli 1-ci səhifədə)**

Necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Ölkəsində müxtəlif sahələrdə insan hüquq və azadlıqlarına hörmətlə yanaşıldığından söz açan Ermənistanın XİN rəhbəri mövzunu Azərbaycanla sülh gündəliyinə bağlayır. O, təmsil olunduğu iqtidar tərəfindən istifadə edilən daha bir ənənəvi tezisi təkrarlayır və bildirir ki, Ermənistan 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyünün qarşılıqlı tanınması və dövlət sərhədinin demarkasiyası prinsipinə əsaslanan Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin bağlanması prosesində səmimidir. Necə səmimidir, ona diqqət yetirək.

Mirzoyan deyir ki, haqqında söz açdığı proses ölkələrin suverenliyinə və yurisdiksiyasına, habelə bərabərlik və qarşılıqlılıq prinsiplərinə tam hörmət əsasında regional nəqliyyat infrastrukturlarının blokdan çıxarılmasını da əhatə edir. O, bu fikri işlədər-işlətməz rəsmi İrəvan tərəfindən ortaya atılmış "Dünyanın kəsişməsi" layihəsi üzərində dayanır və vurğulayır ki, sözügedən təşəbbüs Ermənistanla qonşu dövlətlər arasında kommunikasiyaların inkişafına, bununla da regionda münasibətlərin bütün məntiqini münaqişədən qarşılıqlı faydalı əməkdaşlığa çevirməyə yönəlib: "Ermənistan davamlı olaraq Türkiyə ilə münasibətləri tam həll etmək, diplomatik əlaqələr qurmaq və sərhədləri açmaq üçün səylər göstərir və uğurlu olarsa, şübhəsiz ki, bütün bunlar regiona müsbət təsir göstərəcək".

A.Mirzoyanın söylədiklərində səmimiyyətdən əsər-əlamət yoxdur. Birincisi, Türkiyə siyasi spekulyasiyaları kifayət qədər aydın dərk edir. Buna görə də Ankara ilə əlaqələrin rentabelliyi amilini qabardıb beynəlxalq birliyi aldatmaq cəhdləri əbəsdir. İkincisi, "Dünyanın kəsişməsi" Ermənistan hakimiyyəti tərəfindən ortaya atılmış manipulyativ təşəbbüsdür. Bu təşəbbüs 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdan yayınmağa, Naxçıvana maneəsiz yolu təmin etməkdən boyun qaçırmağa yönəlib.

Qeyd edək ki, Azərbaycan Naxçıvana yolun "Azərbaycandan – Azərbaycana yol" məntiqini əsas tutur. Yəni, orada heç bir gömrük və sərhəd nəzarəti olmamalıdır. Ermənistan isə buna qarşılıq Mirzoyanın da təkrarladığı ərazi bütövlüyü və suverenlik ritorikasını işə salır. Elə bir ritorikanı ki, "Dünyanın kəsişməsi" təşəbbüsü ilə paralel surətdə özünə saxta qlobal məzmun qazandırmağı və beynəlxalq hüquq prinsiplərini əsas tutma imitasiyasını hədəf seçir.



Azərbaycan dövləti yaxşı fərqindədir ki, ölkəmizin "Zəngəzur dəhlizi" (Naxçıvana maneəsiz yol) məntiqinə qarşı irəli sürülmüş "Dünyanın kəsişməsi" erməni avantürizminin perspektivinə hesablanıb. Yəni, Ermənistan rəhbərliyində təmsil olunanlar bu layihə ilə ölkələrin qlobal nəqliyyat xabının mərkəzinə çevrilməyi və nəticədə qazanılacaq iqtisadi dividendi siyasi dividendlə əvəzləməyi, yekunda isə güclənərək, işğalçılıq niyyəti güdməyi planlaşdırırlar.

Bəli, rəsmi İrəvanın, eləcə də Ermənistanın hansısa gələcək rəhbərliyinin ölkəni möhkəmləndirərək, nə zamansa təcavüzkar planlar qurmayacağına heç bir təminat yoxdur. Həm də ona görə təminat yoxdur ki, bu gün də Ermənistan dövləti və ermənipərəst dairələr Qarabağ avantürasından daşınmırlar. Deməli, təhlükəli meyillərə qarşı zamanında mübarizə aparmaq, bədxah niyyətləri beşiyindəcə boğmaq lazımdır. Elə "Dünyanın kəsişməsi" təşəbbüsünü də həmçinin.

Ona görə rəsmi Bakı Naxçıvana yol məsələsində israrlıdır. Yolun ölkəmizin şərtləri ilə açılmayacağı təqdirdə, onun İran ərazisindən keçməsini planlaşdırır. Maraqlıdır ki, ermənipərəst dairələr bununla razılaşmaq istəmirlər. Heç şübhəsiz, onlar Ermənistana həm maddi, həm də mənəvi üstünlük qazandırmaq barədə düşüncələrə dalırlar. Nəticə etibarilə Bakı-İrəvan sülh prosesinə başqa elementlərin əlavə olunmasına çalışırlar. Əlbəttə ki, bu, heç bir fayda verməyəcək.

Beləliklə, istər Mirzoyan, istərsə də onun təmsil olunduğu komandada yer alan digər şəxslər əziyyət çəkib "Dünyanın kəsişməsi"ni müxtəlif beynəlxalq tribunalara daşımasınlar, realliğa düzgün qiymət versinlər. Reallıq isə budur ki, Azərbaycanın şərtləri təmin edilməsə, regional kommunikasiyalar tamam başqa tərtibatda açılacaq. Həmin tərtibatda Ermənistan yer almayacaq, ölkə otuz ilə yaxın müddətdə olduğutək, yenə də dalanda qalacaq. Ən əsası isə otuz il əvvəl olduğu kimi, yenə də tarixi inkişaf fürsətini qaçıracaq. Ermənistan rəhbərliyi bunu istəyirsə, Mirzoyan hər yerdə ağıllı görkəm alıb boş-boş danışa bilər. Onsuz da danışmağa heç nə verilmir, danışmaqla nəyəsə nail olunmur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Maraqların kəsişmə dalanı – Zəngəzur dəhlizi

## *Ağ ev “quyuya atdığı daşı” nədən belə tezliklə çıxarmaq istəyir?*

**Ermənistanla birbaşa sülh danışıqlarının arzuedilən finişə çatması üçün Bakı bütün mümkün variantları İrəvanın qarşısında sərgiləyib. Sülh sazişinin mətninə sayca onuncu təkliflər paketimiz və orada yer alan şərtlərimiz şəffaf və ədalətlidir. Buna adekvat cavab vermək, danışıqlar masasına əyləşmək əvəzinə, Paşinyan iqtidarı ermənipərəst Qərbdən imdad diləmək cəhdlərindən əl çəkmək istəmir. Güvəndiklərinə ümidlərinin özünü doğrultmadığına inanmaq istəməyən Ermənistan rəhbərliyi çeşidli “taktiki gedişlər” edir. “Üçlüy”ün 5 aprel Brüssel sammitindən sonra Avropadan və ABŞ-dan özlərinə hərtərəfli dəstək, Bakıya isə təzyiq gözləyən Paşinyan və onun komandası son patronlarını xərcləməkdədir.**



Artıq bunu açıq şəkildə söyləyə bilərik: Vaşinqtondan ötrü Ermənistan və Azərbaycan arasında sülh sazişinin tezliklə imzalanması onun barışığa can atmasının deyil, ondan sonrakı mərhələdə bölgədə hadisələrin hansı ssenari üzrə cərəyan edəcəyindən keçirdiyi narahatlığın təzahürüdür. Bu narahatlığın başlıca səbəbi isə mütləq işə düşəcək Zəngəzur dəhlizinin və qitələrarası habın – Orta dəhlizin Rusiyanın və İranın nəzarətinə keçməsi ehtimalı ilə bağlıdır. Ağ ev hələlik bu yöndə əndişəsini diplomatik tərzdə, həm də “ezop dili”ndə ifadə etməkdədir.

* * *

Dövlət Departamentinin rəsmisinin “hər iki tərəf kompromisə getməlidir” deyərkən konkret kimin hansı güzəştlərə getməli olduğunu açıqlamaması, yəni detallara varmaması ən müxtəlif ehtimal və versiyaların irəli sürülməsinə yol açır. Bundan özü üçün yanlış qənaətlər çıxaran rəsmi İrəvan, eləcə də Ermənistan müxalifəti bir-birinə düz və tərs mütənasib yanaşmalara baş vururlar. Misal üçün, erməni politoloq Tiqran Abramyan Millerin hansı yeni sərt güzəştlərdən danışdığını anlamadığını deyir. “Biz, əslində, altı ildir uduzmuş, məğlub və geri çəkilən Ermənistanı görmüşük. 2018-ci ildən sonra İrəvan bütün danışıqlarda gedə biləcəyindən daha çox güzəştə getdi. İndi vasitəçiliyə iddialı ABŞ yeni güzəştlər elan edir. Ola bilsin ki, burada söhbət Zəngəzur dəhlizindən gedir”.

Böyük iqtisadi əhəmiyyətə malik Zəngəzur dəhlizinin açılmasında regional və regiondankənar aktorların marağının olduğunu deyən erməni ekspert Türkiyə ilə Azərbaycan üçün bu dəhlizin işə düşməsinin müstəsna siyasi əhəmiyyət kəsb etdiyini xüsusi olaraq vurğulayır: “Məqsəd Ermənistanla İranı ayırmaqdır. İran indi də deyir ki, Ermənistanla sərhədinin olmaması onun üçün qırmızı xəttdir. Amma dəhliz açılanda İranın hansı prioritetlərə sahib olacağını heç kim bilmir”.

Paşinyan iqtidarına müxalifətdə olan deputat Artur Xaçatryan isə bildirir ki, Ermənistan artıq bütün mümkün güzəştlərə getdiyinə görə “sərt kompromis” yalnız Zəngəzur dəhlizinin açılmasına aid ola bilər: “Bir gün bundan əvvəl Ərdoğan demişdi ki, Zəngəzur dəhlizi açıq olmalıdır”. Onun sözlərinə görə, Azərbaycan bu yolu açmaq üçün Ermənistana təzyiq edir, Paşinyan isə həmin yolun əvəzinə, “Dünyanın kəsişməsi” ideyasını irəli sürməklə təzyiqlərdən yayınmağa çalışır.

İki ölkə arasında sülhün əldə olunmasından sonra Zəngəzur nəqliyyat dəhlizinin açılması, həqiqətən də, ABŞ-nin və onun avropalı partnyorlarının Cənubi Qafqaz regionundakı maraqlarının kəsişmə nöqtəsinə çevrilib. Hazırda məhz bu layihəni kollektiv Qərbin bölgədə güddüyü siyasətinin əsas prioriteti hesab etmək olar. Aydın məsələdir ki, burada söhbət heç də 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda göstərildiyi kimi, dəhlizin Rusiya FTX-nın və sərhəd qoşunlarının nəzarəti altında fəaliyyət göstərməsindən getmir. Göründüyü kimi, Vaşinqton Azərbaycanı Naxçıvana, oradan isə Türkiyəyə birləşdirəcək nəqliyyat kommunikasiyalarının Ermənistanın nəzarətində olmasına çalışır. Yuxarıda qeyd etdik ki, Ağ ev bütün hallarda Zəngəzur layihəsini Cənubi Qafqaz ölkələrinin Moskvadan asılılığını azaltmaq üçün “toxuduğu zəncirin” vacib halqası sayır.

* * *

Mövzu ətrafında iki aydan çoxdur davam edən müzakirələr indi özünün pik nöqtəsinə çatıb. Oxuculara xatırladaq ki, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Ceyms O'Brayn iyunda Bakıya səfəri ərəfəsində Konqresdəki dinləmələrdə bu məsələ barədə ətraflı danışıb. Çıxışında Nümayəndələr Palatasının üzvlərinə Mərkəzi Asiyanın bütün ölkələrinin öz mallarını Avropaya, dünya bazarına Çin, yaxud Rusiya vasitəsilə ixrac etdiyini xatırladan Ceyms O'Brayn bu qovşaqda Azərbaycanın alternativ marşruta çevrilə biləcəyini vurğulamışdı. Amma, o, bu zaman nəqliyyat marşrutunun keçəcəyi ölkələrin sırasına Ermənistanı da əlavə etməyi “unutmamışdı”: “Bir marşrut Gürcüstandan Qara dənizə keçir. Digəri isə daha geniş marşrutdur və o, Azərbaycan, Ermənistan və Türkiyə ərazisindən keçə bilər”.

Bu məqamda “stop-kadr” eləyib, O'Braynın alternativ marşrutla bağlı “maraqlı” açıqlamasını Vaşinqtonun kompromisə getmək təklifi ilə tamamilə üst-üstə düşməsi versiyasına diqqət yetirməyə dəyər. Yəni, ABŞ Dövlət katibinin müavini bir ay bundan əvvəl Ağ evin Zəngəzurla bağlı mövqeyini tam açıqlığı ilə ortaya qoyub. Məlum olur ki, Bakıdan tələb olunan güzəşt Orta dəhlizə Ermənistanın da qoşulmasına razılıq verməsidir. Bəs, bunun əvəzində İrəvan hansı güzəştlərə gedəcək? Hələlik bu barədə okeanın o tayından konkret heç nə deyilməyib.

Bundan başqa, O`Brayn İrəvana səfəri zamanı Paşinyan hakimiyyəti ilə Azərbaycan, Ermənistan və Türkiyə arasında nəqliyyat kommunikasiyalarının bərpasının vacibliyi məsələsini də müzakirə etmişdi. Həmin danışıqlarda Ağ evin yüksək səviyyəli diplomatı açıq mətnlə bildirib ki, bu kommunikasiyaların açılması ABŞ-nin Rusiyanın Mərkəzi Asiya və Cənubi Qafqazda təsir imkanlarını sıfıra endirmək strategiyasının bir hissəsidir. İlk baxışda regional nəqliyyat kommunikasiyalarının, o cümlədən Azərbaycanla Naxçıvan arasında yolun açılması məsələsinə yanaşmada ABŞ və Ermənistanın mövqeləri oxşar görünür. Bu oxşarlığı şərtləndirən əsas amil Vaşinqton kimi, İrəvanın da Rusiyanın Zəngəzur dəhlizinə nəzarətini tamamilə istisna etmələridir.

Onu da qeyd edək ki, Ermənistanın rəsmi mənbələrindən mətbuata sızan məlumatlara görə, Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişinin son mətnində Zəngəzur dəhlizindən bəhs edən bənd yoxdur. İntəhası, eyni zamanda, kənar aktorlar regional nəqliyyat kommunikasiyalarının açılması məsələlərinin müzakirəsini davam etdirirlər.

Ortaya çıxan sual budur: Azərbaycan bu kommunikasiyaların ABŞ və Ermənistanın istədiyi formada açılmasında maraqlıdırmı? Məlum olduğu kimi, qarşılıqlı razılaşma əsasında Azərbaycan İran ərazisindən keçməklə Naxçıvanla ayrıca nəqliyyat əlaqəsi yaratmağa üstünlük verir. Hazırda Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi kimi gələcəkdə İranın avtomobil və dəmir yolları şəbəkəsi ilə birləşdirilməsi planlaşdırılan “Araz yolu” adlanan nəqliyyat kommunikasiyalarının inşası da davam etdirilir. Onu da xatırladaq ki, bu layihə Ermənistanın 2020-ci il 10 noyabr tarixli Bəyanatında müəyyən edilmiş öhdəliklərini yerinə yetirməməsindən, Azərbaycan və Naxçıvan arasında maneəsiz nəqliyyat və logistika kommunikasiyaların açılışından imtina etməsindən sonra həyata keçirilməyə başlanıb.

* * *

Rəsmi Bakı dəfələrlə, həm də açıq şəkildə bəyan edib ki, baş nazir Paşinyanın irəli sürdüyü və rəsmi Vaşinqtonun dəstəklədiyi “Dünyanın kəsişməsi” ideyası onu qətiyyən maraqlandırmır. Çünki ABŞ-nin geosiyasi maraqlarına cavab verən bu layihə Ermənistanın Türkiyə ilə sərhədlərinin açılmasına yönəlib ki, bu da onun Rusiyadan ayrılmasına və Qərblə yaxınlaşmasına gətirib çıxarmasına hesablanıb.

Beləliklə, proseslərin hətta kənar müşahidəçisi də görür ki, Cənubi Qafqazda sülh əldə olunandan sonra ABŞ-nin Ermənistana yerləşməsi və Rusiya hərbçilərinin oradan qovulması prosesi daha da asanlaşacaq. Məgər son iki ildə ABŞ-nin Ermənistanda keçirdiyi hərbi təlimlər, Dövlət katibi Antoni Blinkenin köməkçilərinin, senator və konqresmenlərin İrəvana intensiv səfərləri buna xidmət etmir? Elə üç gün əvvəl başlamış “Eagle Partner-2024” birgə hərbi təlimlərini də, əslində, Rusiyanın Ermənistandan çıxarılması üşün “repetisiya” saymaq olar.

Baş verən bütün bu proseslərin fonunda Azərbaycan özünün qəti mövqeyindən geri çəkilmək barədə düşünmür və Ermənistandan sülhün şərtlərini yerinə yetirməsini tələb edir. Buraya hələ də işğal altında olan 4 anklav kəndin geri qaytarılması, Ermənistan konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarının çıxarılması kimi tələblər daxildir. Bu məsələlərdə Azərbaycanın milli təhlükəsizliklə bağlı narahatlığı var və bunu həm region ölkələri, həm də kənar aktorlar mütləq nəzərə almalıdırlar. Ən azı ona görə ki, bu tələblər yerinə yetirilmədən sülh müqaviləsinə imza atmaq yenidən hayların və onların arxasından boylananların tələsinə düşmək, bölgənin gələcəyini təhlükə qarşısında qoymaq demək olar.

ABŞ, doğrudan da, bölgədə sülh istəyirsə, bunları mütləq göz önünə almalı və Cənubi Qafqazda gərginliyi artıra biləcək hərəkətlərə deyil, İrəvana təzyiq göstərməyə üstünlük verməlidir.

***İmran BƏDİRXANLI***
***XQ***

**Replika**

**Nyu-York Məhkəməsi uzun sürən araşdırmalardan sonra, nəhayət, amerikalı ermənipərəst senator Bob Menendezlə bağlı qərarını açıqlayıb. Məhkəmə heyəti Nyu-Cersi ştatından Demokratlar Partiyasının Senatdakı təmsilçisini ABŞ Cinayət Məcəlləsinin nə az, nə çox, 16 maddəsi üzrə təqsirli sayıb. Prokurorlar sübuta yetiriblər ki, bu “məşhur” senator Misirin hərbi maraqlarına xidmət edib, cinayət təqiblərinə müdaxiləyə, eləcə də Qətər rəsmilərinin sərmayələrinin təhlükəsizliyini təmin etmək üçün səlahiyyətlərindən sui-istifadə hallarına yol verib. İddialara əsasən, Bob Menendez və onun erməni əsilli həyat yoldaşı bu “fəaliyyətləri” müqabilində qızıl külçələr, zinyət əşyaları, yüz minlərlə dollar nağd pul, bahalı avtomobillər və digər formada rüşvəti rahatca mənimsəyiblər.**

# “İki pərdəlik” ifşa



Bundan əvvəlki məhkəmə prosesində senatorun həyat yoldaşı, erməni əsilli Nadine Arslanyanın da adı keçirdi. Fəqət, onun məhkəməsi “qəfil xəstələnməsi” səbəbindən hakim tərəfindən qeyri-müəyyən müddətə təxirə salınmışdı. Yəni, Nadinenin “xəstəliyi” ilə bağlı quraşdırdığı “tamaşa” onun və ərinin həbsxanaya aparan yolunu müvəqqəti olaraq uzatmışdı. Amma “tamaşanın” ikinci pərdəsi mütləq oynanılmalı idi.

Nyu-York Məhkəməsi sübuta yetirib ki, Bob Menendezlə yanaşı, Nyu-Cersi ştatından olan iş adamları Vael Hana və Fred Daybes də dövlətin yox, şübhəli qrupların maraqlarına xidmət ediblər. Onlar hətta Ağ evin xarici siyasətinə təsir göstərməyə çalışıblar.

Yada salaq ki, ABŞ Senatının xarici əlaqələr komitəsinin rəhbəri vəzifəsindən kənarlaşdırılan Menendez ermənipərəst fəaliyyətini Konqresin yuxarı palatasında davam etdirirdi. Yeri gəlmişkən, bir maraqlı faktı da oxucuların diqqətinə çatdıraq ki, 2006-cı ildən Nyu-Cersi ştatının senatoru olan Bob Menendez federal agent kimi müttəhimlər kürsüsünə oturdulan ilk senatordur. Ümumiyyətlə, son 20 ildə Senatın bu ermənipərəst, rüşvətxor üzvünə qarşı məhkəmə ikinci dəfədir ki, korrupsiya ittihamı ilə cinayət işi qaldırır. Bundan əvvəlki məhkəmə prosesi həm Nadine Arslanyanın “xəstəliyi”, həm də andlı hakimlərin yekdil hökm çıxara bilməməsi üzündən yarımçıq qalmışdı.

ABŞ-dakı erməni lobbisinin dəstəklədiyi, ölkəmizə qarşı düşmən mövqeyi ilə tanınan Bob Menendezi məhkəmə rüşvətxorluq, fırıldaqçılıq, xarici agent kimi fəaliyyət göstərmək, Femidaya maneçilik törətmək və elektron əlaqə vasitələri ilə dələduzluq daxil olmaqla 16 ittiham üzrə təqsirli bilib. Onu 20 ilə yaxın həbs cəzası gözləyir.

Hay sevgilisi Nadine Arslanyandan təkcə rüşvətxorluğu deyil, həm də həyasızlığı əxz etmiş senator bu ilin iyununda Nyu-Cersi ştatından müstəqil namizəd kimi Senata yeni seçkilərdə iştirak etmək barədə müraciət edibmiş. Əslində, “Haykanuşun” toruna düşmüş ispan əsilli başabəla hüquqşünasın qollarının qandallanmasını onun Bakıya qarşı məkrli planlarının Femida tərəfindən ifşa edilməsi faktı kimi də qəbul edə bilərik. İntəhası, bu ifşa bir qədər vaxt apardı və “iki pərdədən ibarət tamaşa” ilə müşayiət olundu. Hamının maraqla izlədiyi bu tamaşanın acı sonluğu, bədbin epiloqu ən çox amerikalı erməniləri “sarsıdıb”.

Bəli, bu adamlar çörəyini yedikləri “supergücün” milli mənafeyini yox, işğalçı Ermənistanın maraqlarını əsas götürüblər. Tarixin arxivinə göndərdiyimiz Qarabağ münaqişəsi dönəmində “demokratiya, insan hüquqları” bəhanəsi ilə Azərbaycana qarşı qəbul edilən bütün qərarların mahiyyətini məhz ermənilərin maraqlarının qorunması siyasəti təşkil edirdi. Bob Menendez Bakıya qarşı məkrli planların icrası prosesində daim fəal iştirakçı olub. Misal üçün, o, Senatın xarici əlaqələr komitəsinin sədri kimi Xankəndidən çıxmağa tələsməyən separatçı–xunta rejiminin müdafiəsi üçün bütün üsullardan istifadə edir, hətta ABŞ Dövlət Departamentinin rəhbərliyi ilə mübahisəyə girişirdi. Elə o zaman Menendezin və hayların “təəssübünü çəkən” digər senatorların Kaliforniyadakı erməni diasporundan böyük məbləğdə “ənam” aldıqları çoxlarına məlum idi. İndi məhkəmənin menendezlərə qarşı irəli sürdüyü bütün ittihamların təsdiqlənməsi həm də deyilənlərin həqiqət olduğunun sübutudur.

Beləliklə, ABŞ Femidası tarixində növbəti qalmaqallı prosesə – “menendezqeyt”ə nöqtə qoyuldu və erməni lobbisi bu dəfə də pərdə arxasında qaldı...

***İ.HƏSƏNQALA***
***XQ***

# Bakıda Fransa əsarətinə qarşı Müstəqillik Hərəkatlarının Qurultayı

**İyulun 17-də Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda birinci Qurultayın açılış mərasimi keçirilib.**



Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və Sən-Martin adalarından 3 təşkilat Qurultayın işində fəxri qonaq qismində iştirak edib.

Açılış nitqi ilə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Yeni Kaledoniyada baş verən son iğtişaşlar zamanı, Fransa polisi tərəfindən müstəqillik hərəkatlarının üzvləri qanunsuz həbs olunub. Onlarla terrorçu kimi davranılıb və gizli şəkildə Parisə aparılaraq müxtəlif işgəncələrə məruz qalıblar. Onlar arasında azyaşlı uşaqları olan qadınlar da var. Bakı Təşəbbüs Qrupu siyasi məhbusların ailələrinə və onları müdafiə edən vəkillərə yardım göstərəcəyini bəyan edir.

Bugünkü tədbirdə həmin siyasi məhbusların bəzilərinin ailə üzvlərinin iştirak etdiklərini diqqətə çatdıran A.Abbasov vurğulayıb: “Bakı Təşəbbüs Qrupu Fransa koloniyalarında yaşayan gənclərə Azərbaycanın ali təhsil müəssisələrində təhsil almaq imkanı verən tələbə-təhsil təqaüdü elan edib. Artıq bu ildən başlayaraq həmin ərazilərdən olan gənclər bu təqaüddən yararlana bilərlər”.

Sonra çıxış edən Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibi Jan-Jakob Bisep Bakıda belə bir Qurultayın keçirilməsinə dəstək göstərdiyi üçün Azərbaycan hökumətinə təşəkkürünü bildirərək deyib: “Azərbaycan cəsarətli addımlar atır. BMT-nın çətiri altında Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə biz ilk dəfə Bakıda belə bir tədbir keçiririk”.

O, bu Qurultayın tarixi xarakter daşıdığını qeyd edərək bildirib: “Biz kolonializmə qarşı birlikdə mübarizə apara bilərik. Bizim məqsədimiz dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltməkdir. Biz əlimizdən gələni edəcəyik ki, həmrəyliyimizi möhkəmləndirək, dünyada daha çox görünə bilək. Fransa koloniyalarına qarşı cinayətlər törədən dövlətdir. Məqsədimiz dünyanı Fransaya təsir göstərmək üçün səfərbər etməkdir”.

Daha sonra Qurultayda Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə dair 1 il ərzində keçdiyi uğur yolu barədə videoçarx nümayiş etdirilib.

İcraçı direktor Abbas Abbasov Qurultay iştirakçıları üçün Bakı Təşəbbüs Qrupunun birillik fəaliyyətinin yekununa dair qısa təqdimatla çıxış edib.

“Yeni Kaledoniyanın müstəqillik yolu və yeni çağırışlar” mövzusunda müzakirələrlə davam edən tədbirdə digər iştirakçıların çıxışları dinlənilib.

Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest Bakıda keçirilən tədbirdə iştiraklarına görə Azərbaycan hökumətinə və buna şərait yaradan bütün insanlara təşəkkürünü ifadə edib. Deyib ki, Fransanın koloniyaları ilə bağlı bu Qurultayda biz çətin yoldan uzaqlaşmaq üçün həll yolu tapmalıyıq. “Biz plaftormalarımızı möhkəmləndirməliyik, müzakirələr aparmalıyıq. Siyasi fəaliyyətimizi elə qurmalıyıq ki, çağırışlara cavab tapa bilək. Bakı Təşəbbüs Qrupu bizə imkan yaradıb, bunu dəyərləndirməliyik. Bir araya gələrək müxtəlif gələcək platformalar barədə düşünməliyik. Yeni dünya düzənində öz yerimizi tapmalıyıq”, - deyə o əlavə edib.

Sonra çıxış edən Yeni Kaledoniya Konqresinin üzvü İzabella Kaloi vurğulayıb ki, mayın 13-dən bəri Yeni Kaledoniyada yaşananları hamı bilir. Azərbaycana gəlmək, bu qurultayda iştirakımızın məqsədi Fransa dövlətinin bizə qarşı aktlarının qəbuledilməz olduğunu qətiyyətlə bildirməkdir. Biz bunu sərt şəkildə qınayırıq. Burada əsasən irqçi polislərdən söhbət gedir. Yazılan hesabatlar, insanların bu barədə dedikləri hələ də reallığa çevrilmir. Nəticə olaraq insanlarımıza qarşı düzgün hərəkət edilmir, hazırkı vəziyyətdə regionda qarşıdurmalar, yanğınlar baş verir. İllərdən bəri yaranmış problemlər gündən-günə daha geniş vüsət alır.

İ.Kaloi bildirib ki, bununla bağlı keçirilən tədbirlər, əlbəttə, məsələni kökündən həll etmir. “Demək istərdim ki, biz repressiyaya məruz qalmışıq. Bütün bunların yaranma səbəbi çox təəssüf ki, bizim səsvermə hüquqlarımızın ləğv edilməsidir. Bunu Fransa dövləti edib, hüquqlarımızın tapdalanması yolverilməz və qəbuledilməzdir. Biz bununla bağlı məlumat verdik, təkliflər hazırladıq və əksəriyyət də bu təklifə müsbət yanaşdı. Amma Fransa dövləti bizi dinləmək istəmədi. Ümumiyyətlə, səsvermə hüququnun dondurulması qərarı seçicilərə, mədəniyyətimizə və müqəddəratımıza qarşı olmaq deməkdir”, - deyə İzabella Kaloi əlavə edib. O, qurultayın təşkilinə görə bir daha Bakı Təşəbbüs Qrupuna təşəkkürünü bildirib.

Yeni Kaledoniya parlamentinin üzvü Maria Saliqa diqqətə çatdırıb ki, Fransa dövlətinin hərəkətləri qəbuledilməzdir və beynəlxalq səviyyədə müzakirə olunmalıdır. Makron Fransası bütün demokratiya qaydalarına üz çevirib. Maria Saliqa qeyd edib ki, Fransız Polineziyasında bu ölkənin atom, nüvə testlərini xatırlayırıq. Həmin ərazilərdəki xalqlar bundan uzun müddət əziyyət çəkdilər. “Fransa terrorçu dövlətdir. Azad etmək istəmədiyi ərazilərdə hökmranlığını sürdürür”, - deyə o vurğulayıb.

Müzakirələr zamanı çıxış edən digər iştirakçılar bildiriblər ki, Fransa hakimiyyəti onların öz müqəddəratını təyinetmə hüququnu tanımalı və müstəqillik proseslərini dəstəkləməlidir. Onlar müstəmləkə siyasəti nəticəsində iqtisadi və mədəni zərərlərdən bəhs edərək, yerli əhalinin hüquqlarının qorunmasının və inkişafının təmin olunmasının vacibliyini diqqətə çatdırıblar.

Qurultay işini “Beynəlxalq Azadlıq Cəbhəsinin yaranması” mövzusunda müzakirələrlə davam etdirib.

İki gün davam edəcək Qurultay iştirakçı tərəflərə müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə vahid platforma yaradaraq Fransa müstəmləkəçiliyinə qalib gəlmək üçün nəticəyönümlü fəaliyyətin əlaqələndirilməsinin yolları barədə müzakirə aparmaq imkanı yaradacaq. Həmçinin koloniyaların təmsilçiləri öz müqəddəratını təyin etmək mübarizəsində ən səmərəli təcrübə və strategiyalar barədə fikirlərini bölüşəcəklər.

koloniyalarda Fransa hökuməti tərəfindən bu ərazilərin sahibləri olan yerli xalqlara qarşı törədilən çoxsaylı cinayətlər və qeyri-qanuni hərəkətlər barədə beynəlxalq ictimaiyyətin məlumatlılığının artırılmasına, ümumilikdə XXI əsrin bəlalarından biri olan müstəmləkəçilik probleminə diqqət çəkməyə töhfə verəcək.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda “Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru” mövzusunda konfransın iştirakçıları tərəfindən yaradılıb. Artıq bir ildir ki, Qrup müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. Bu xüsusda, Bakı Təşəbbüs Qrupu tərəfindən artıq 15-dək beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu-York, Cenevrə və Vyanadakı qərargahlarında, biri İstanbulda, digərləri isə Bakıda keçirilib.

***XQ***



# Milli Məclisə seçkilərə 44 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş şəxslər




**İyulun 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib.**

İclasda ilk olaraq Azərbaycan Respublikasının Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədlərin irəli sürülməsi məsələsinə baxılıb.

Tahir Budaqov qeyd edib ki, Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoyub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük lokal xarakterli antiterror tədbirləri nəticəsində qazandığımız möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin, konstitusiya quruluşunun bərpasını və üçrəngli bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin edib. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə, milli və regional təhlükəsizliyin təmin olunmasına hədəflənmiş uzaqgörən siyasəti sayəsində istər ölkə daxilində, istərsə də bütövlükdə bölgədə yeni reallıqlar yaranıb və ölkəmizin qarşısında yeni perspektivlər açılıb.

YAP Sədrinin müavini vurğulayıb ki, 2024-cü ilin fevralında keçirilmiş Zəfər seçkisində xalqın mütləq əksəriyyəti Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi dəstəkləməklə həyata keçirilən siyasətə, Heydər Əliyev yoluna dərin inamını bir daha nümayiş etdirib. Hazırda ölkəmiz daha bir mühüm ictimai-siyasi proses ərəfəsindədir. Müstəqillik tariximizdə ilk dəfə olaraq 2024-cü il sentyabrın 1-də ölkəmizin bütün ərazisində Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçiriləcəkdir. Ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə qatılır.

Sonra Milli Məclisə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş şəxslərin siyahısı elan edilib və müzakirələrdən sonra təsdiq olunub.

YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Tahir Mirkişili, Bahar Muradova, Anar İsgəndərov, Elmar Qasımov, Eldar İbrahimov, Azər Badamov və Kamal Cəfərov çıxış edərək bildiriblər ki, Azərbaycanın müasir dövlətçilik tarixinin olduqca mühüm bir dönəmində qarşıda duran strateji əhəmiyyətli hədəflərin reallaşdırılması üçün ölkənin ali qanunverici orqanı olan Milli Məclisin üzərinə də böyük vəzifələr düşür. Belə bir tarixi mərhələdə parlamentdə təmsilçiliyin şərəfli, eyni zamanda, məsuliyyətli olduğu vurğulanıb, göstərilən yüksək etimada görə Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə dərin minnətdarlıq ifadə olunub.

Bundan sonra seçki komissiyalarının tərkibinə təklif olunan məşvərətçi səs hüquqlu üzvlər, seçki dairə və məntəqələrində səsvermə günü müşahidə aparacaq şəxslərlə bağlı məsələyə baxılıb və onların siyahıları təsdiq edilib.

İclasa yekun vuran YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov namizədlərə uğurlar arzulayaraq dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin onlara göstərdiyi yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəklərinə, yeni dövrdə qarşıda duran vəzifələrin icrası üçün var gücü ilə çalışacaqlarına əminliyini ifadə edib.

Tahir Budaqov qeyd edib ki, Yeni Azərbaycan Partiyası bu zamana qədər Azərbaycanın yüksəlişində və çox mühüm tarixi nailiyyətlərin əldə edilməsində müstəsna rol oynayıb, bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq strateji kursa - Heydər Əliyev yolunun davamçısı olan Prezident İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasətinin həyata keçirilməsinə öz töhfələrini verəcəkdir: "İnanırıq ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi, Heydər Əliyev yoluna sədaqətinin və Prezident İlham Əliyevin Zəfər yürüşünün davamına birmənalı dəstəyinin təsdiqi olacaqdır", - deyə o əlavə edib.

Azərbaycan Respublikasının Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa irəli sürülmüş namizədlər:

1 saylı Şərur-Sədərək Əsgərov Ziyafət Abbas oğlu
2 saylı Şərur-Kəngərli Novruzov Siyavuş Dünyamalı oğlu
3 saylı Babək-Şahbuz-Kəngərli Babayev Asiman Əli oğlu
4 saylı Naxçıvan şəhər İbrahimov Eldar Rza oğlu
5 saylı Babək-Naxçıvan-Culfa Həmzəyeva Ülviyyə Tapdıq qızı
6 saylı Ordubad-Culfa Rəhimzadə Vüqar Gəncəli oğlu
7 saylı Səbail Qarayev Əhliman Paşa oğlu
8 saylı Binəqədi birinci Mirzəyeva Həcər Niyazi qızı
9 saylı Binəqədi ikinci Qafarov Kamaləddin Nəsrəddin oğlu
10 saylı Binəqədi üçüncü Hüseynov Hümbət Rəhim oğlu
11 saylı Binəqədi-Qaradağ Xasayeva Səbinə Səməd qızı
12 saylı Xəzər birinci Maniyeva Aygün Şaitdin qızı
13 saylı Xəzər ikinci Əliyev Cəlahir Mirzəbala oğlu
14 saylı Xəzər-Pirallahı Rəsulova Vüsalə Elman qızı
15 saylı Yasamal birinci Quliyev Əli Dilən oğlu
16 saylı Yasamal ikinci Mirzəyev Həbib Adil oğlu
17 saylı Yasamal üçüncü Məmmədov Zaman Rəşid oğlu
18 saylı Nərimanov-Nizami-Binəqədi Babaşov Nizami Babaş oğlu
19 saylı Nərimanov birinci Məmmədov Hikmət Baba oğlu
20 saylı Nərimanov ikinci Vəliyev Samir Əhməd oğlu
21 saylı Nəsimi-Binəqədi İbrahimqızı Məlahət İbrahim qızı
22 saylı Nəsimi-Yasamal Hüseynov Xaliq İsa oğlu
23 saylı Nəsimi-Səbail Rəhimov Elnur Fidail oğlu
24 saylı Nizami birinci Rüstəmov Ramil Şahsuvar oğlu
25 saylı Nizami ikinci Əhmədov Əli Cavad oğlu
26 saylı Sabunçu birinci Hacıyeva Afaq Şirzad qızı
27 saylı Sabunçu ikinci Qasımova Səbinə Məmmədağa qızı
28 saylı Sabunçu üçüncü Qurbanov Taleh Mərifət oğlu
29 saylı Sabunçu dördüncü Abdullazadə İlahə İntiqam qızı
30 saylı Suraxanı birinci Fətəliyeva Sevinc Həbib qızı
31 saylı Suraxanı ikinci Quliyev Etibar Əliağa oğlu
32 saylı Suraxanı üçüncü Həsənova Afət Əbil qızı
33 saylı Xətai birinci Əliyev Yengibar Sərraf oğlu
34 saylı Xətai ikinci Zabelin Mixail Yuryeviç
35 saylı Xətai üçüncü Vəliyeva Pərvanə Bulut qızı
36 saylı Xətai-Suraxanı Hacıyeva Nərminə Aslan qızı
37 saylı Qaradağ Hüseynov Aydın Nəsir oğlu
38 saylı Gəncə birinci Həmzəyev Naqif Ələşrəf oğlu
39 saylı Gəncə ikinci Kərimzadə Pərvin Orxan qızı
40 saylı Gəncə üçüncü Quliyev Musa İsa oğlu
41 saylı Gəncə-Samux-Goranboy Cəfərov Müşfiq Cəfər oğlu
42 saylı Sumqayıt birinci Hüseynova Hicran Kamran qızı
43 saylı Sumqayıt ikinci Mirkişili Tahir Famil oğlu
44 saylı Sumqayıt üçüncü Vəliyeva Mehriban Hidayət qızı
45 saylı Sumqayıt dördüncü Hacıyev Naib İsmixan oğlu
46 saylı Sumqayıt beşinci Akimova Elnarə Seydulla qızı
47 saylı Sumqayıt-Abşeron-Qaradağ Mustafayev Musa Musa oğlu
48 saylı Abşeron birinci Məmmədova Nigar Fikrət qızı
49 saylı Abşeron ikinci Xudayev Faiq Allahverdi oğlu
50 saylı Abşeron üçüncü Namazov Ramid Zakir oğlu
51 saylı Şirvan Əsədov Heydər Xanış oğlu
52 saylı Yevlax Məmmədov İlham Kazım oğlu
53 saylı Yevlax-Mingəçevir Hüseynli Əli Məhəmməd oğlu
54 saylı Mingəçevir Mirzəzadə Aydın Böyükkişi oğlu
55 saylı Siyəzən-Quba-Xızı Məmmədli Müşfiq Fazil oğlu
56 saylı Şabran-Xaçmaz Süleymanlı Mahir Tahir oğlu
57 saylı Xaçmaz şəhər Vəliyev Ağalar İsrəfil oğlu
58 saylı Xaçmaz kənd Əskərova Könül Rəcəb qızı
59 saylı Quba Məhərrəmzadə Əlibala Səttar oğlu
60 saylı Quba-Qusar Bağırova Fidan Yusifəli qızı
61 saylı Qusar Badamov Azər Camal oğlu
62 saylı Kürdəmir Kazımova Yadigar Təvəkgül qızı
63 saylı Hacıqabul-Kürdəmir Aslanov Aqil Rahil oğlu
64 saylı Salyan Qurbanov Sadiq Haqverdi oğlu
65 saylı Salyan-Biləsuvar-Neftçala Ağayev Emin Zülfüqar oğlu
66 saylı Saatlı Ələkbərov Əziz Yusif oğlu
67 saylı Sabirabad Əmiraslanov Əhliman Tapdıq oğlu
68 saylı Sabirabad-Şirvan Cəfərov Kamal Xaqani oğlu
69 saylı Biləsuvar Əliyev Elməddin Saməddin oğlu
70 saylı Neftçala Baxışov Fərhad Ceyhun oğlu
71 saylı Cəlilabad şəhər Həsənov Malik Əvəz oğlu
72 saylı Cəlilabad kənd Nəsirov Elman Xudam oğlu
73 saylı Masallı-Cəlilabad Əliyeva Aytən Ədalət qızı
74 saylı Masallı Məmmədov Məşhur Şahbaz oğlu
75 saylı Yardımlı-Masallı Əliyev Sərvər Məlikməmməd oğlu
76 saylı Lənkəran-Masallı Paşazadə Cavanşir Hümmət oğlu
77 saylı Lənkəran şəhər Əliyev Əlimərdan Ələkbər oğlu
78 saylı Lənkəran kənd İsgəndərov Anar Camal oğlu
79 saylı Astara Mahmudov Rəşad Məmmədqulu oğlu
80 saylı Lerik-Astara Rəcəbov Elman Əliheydər oğlu
81 saylı İmişli Məmmədov İsrafil Zakir oğlu
82 saylı İmişli-Saatlı Salahlı Səyyad Adil oğlu
83 saylı Beyləqan İsmayılov Şahin Əmir oğlu
84 saylı Füzuli Məmmədov Namiq İbrahim oğlu
85 saylı Füzuli-Ağcabədi Cəfərov Dəyanət Cəmil oğlu
86 saylı Ağcabədi Rzayev Tahir Musa oğlu
87 saylı Qobustan-Şamaxı-İsmayıllı Novruzov Rasim Ramis oğlu
88 saylı Şamaxı Tağızadə Rəfail Vahid oğlu
89 saylı İsmayıllı Allahverdiyeva Xavər Şahı qızı
90 saylı Ağsu Hüseynov Əli Abbas oğlu
91 saylı Göyçay Əkbərov Fərid Əkbər oğlu
92 saylı Göyçay-Ağdaş Məmmədyarova Firəngiz Rafiq qızı
93 saylı Ağdaş Şahmuradov Anar Raqif oğlu
94 saylı Ucar Həsən Ramil Sahib oğlu
95 saylı Zərdab-Kürdəmir-Ucar İsmayılova Səliqə Oruc qızı
96 saylı Goranboy - Naftalan Bədəlov Bədəl Şamil oğlu
97 saylı Tərtər-Ağdərə-Goranboy Məmmədov Anar İlyaz oğlu
98 saylı Bərdə-Tərtər Fətiyev Xanlar Nuru oğlu
99 saylı Bərdə Yıldırım Fatma Vidadi qızı
100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər Bayramov Kamran Fərhad oğlu
101 saylı Samux-Şəmkir Qurbanlı Mübariz Qəhrəman oğlu
102 saylı Şəmkir şəhər Qafarova Sahibə Əli qızı
103 saylı Şəmkir kənd Həsənov Nurlan Urfan oğlu
104 saylı Gədəbəy Hüseynova Sevinc Əmirəhməd qızı
105 saylı Tovuz-Gədəbəy Hüseynov İlkin Abbas oğlu
106 saylı Tovuz Səfərov Nizami Abdulla oğlu
107 saylı Tovuz-Qazax-Ağstafa Aslanova Humay Tofiq qızı
108 saylı Ağstafa Kərimov Gülgün Kərim oğlu
109 saylı Qazax Seyidov Səməd İsmayıl oğlu
110 saylı Balakən Məhəməliyev Nəsib Məhəmməd oğlu
111 saylı Zaqatala-Balakən Mahmudova Vüsalə Yusif qızı
112 saylı Zaqatala Əsgərov Asif Yunis oğlu
113 saylı Qax-Şəki Sayadov Mithad Bəhərçi oğlu
114 saylı Şəki şəhər İskəndərov Vüqar Yapon oğlu
115 saylı Şəki kənd Yusibov Niymət Yusif oğlu
116 saylı Qəbələ Əliyeva Ədilə Əli qızı
117 saylı Oğuz-Qəbələ-Şəki Qurbanov Eyvaz Daşdəmir oğlu
118 saylı Ağdam-Xocalı Məmmədov Elman Camal oğlu
119 saylı Ağdam Məmmədov İbrahim Raqif oğlu
120 saylı Cəbrayıl-Qubadlı Məmmədov Ceyhun Valeh oğlu
121 saylı Laçın Muradov Rövşən Şahbaz oğlu
122 saylı Xankəndi Məmmədov Aqil Kamran oğlu
123 saylı Kəlbəcər Əhmədova Aidə Ələsgər qızı
124 saylı Şuşa-Ağdam-Xocavənd Babışova Leyla Adil qızı
125 saylı Zəngilan-Qubadlı İsmayılov İmamverdi İbiş oğlu.

# Seçkilər beynəlxalq standartlara uyğun keçiriləcək

**Növbədənkənar parlament seçkiləri hazırda deputatatlığa namizədlərin irəli sürülməsi və qeydə alınması kimi zəruri mərhələyə qədəm qoyub. Buna baxmayaraq, digər sahələrdə də hazırlıq işləri davam etdirilir. Seçki məntəqələrinin zəruri ləvazimatlarla təchiz edilməsi, seçki prosesində müşahidə aparmaq istəyənlərin qeydə alınması, seçici siyahılarının dəqiqləşdirilməsi, həmçinin maarifləndirmə proqramlarının təşkili prioritet vəzifələrdəndir.**



Seçkilərə hazırlıq işləri ilə yaxından tanış olmaq üçün 25 saylı Nizami II seçki dairəsinə müraciət etdik. Bu da təsadüfi deyi. Çünki bu vaxta qədər həmin dairənin ərazisində keçirilən seçkilərdə elə bir ciddi qanun pozuntusu qeydə alınmayıb. Seçki dairəsinin sədri Heydər Vəliyevin də bu sahədə zəngin təcrübəsi var. O, 20 ilə yaxındır ki, seçki prosesində iştirak edir.

H.Vəliyev dedi ki, seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı rəsmi dərc olunduqdan sonra passiv seçki hüququ olan vətəndaşlar öz təşəbbüsləri ilə, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar, siyasi partiyaların blokları birmandatlı seçki dairələri üzrə namizədlərin irəli sürülməsinə başlayıblar. Təcrübəmə əsaslanaraq deyə bilərəm ki, bu, seçki prosesində ən gərgin dövrdür. Dairə seçki komissiyaları tərəfindən namizədliyin irəli sürülməsini təsdiq edən qərar qəbul edildiyi gündən başlayaraq, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, habelə siyasi partiyanın və siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələri veririk.

Seçki dairəsinin sədri bildirdi ki, namizədliyi təsdiq edilənlər tələb olunan etibarlı imzaları toplayandan sonra yenidən seçki dairəsinə müraciət edirlər. Dairənin ekspert qrupu imzaları yoxladıqdan sonra həmin şəxsin namizədliyinin qeydiyyata alınması barədə qərar qəbul edilir. Namizədlər arasında namizədliyi qeydə alınmayanlar da ola bilər. Lakin bu, qanunvericiliklə tam əsaslandırılmalıdır. Əgər namizəd seçki dairəsinin bu qərarından narazı qalarsa, MSK-ya şikayət edə bilər. Bu, onun konstitusion hüququdur.

Seçicilərin sayından söhbət açan dairə sədri dedi ki, bu rəqəm hələlik tam müəyyənləşdirilməyib. Çünki dünyasını dəyişənlər, əraziyə yeni gələn və gedənlər, digər zəruri səbəblər buna imkan vermir. Son dəqiqləşmə müəyyənləşdirildikdən sonra məntəqə seki komissiyalarına ötürüləçək. Bu il 34 seçki məntəqəsində səs verəcək seçicilər üçün əlverişli şərait yaradılıb. Müşahidəçilərin səsvermə prosesini izləmələri üçün münasib yer seçilib.

Məlum olduğu kimi, seçkilərin aşkar və demokratik şəraitdə keçirilməsi həm də müşahidəçilərdən asılıdır. Ona görə də onların seçkini rahat izləmələri üçün şərait yaratmalıyıq. Bəzi seçki məntəqəsində veb-kameralar da quraşdırılıb. Bu da şəffaflığın təmin olunmasında yaxşı vasitədir. Çünki dünyanın müxtəlif ölkələrindən Azərbaycanda keçirilən seçkiləri veb-kameralar vasitəsilə canlı izləmək mümkündür.

H.Vəliyev Azərbaycanda keçirilən seçkilərdə bir sıra yeniliyin tətbiq edilməsinin beynəlxalq müşahidəçilər tərfindən yüksək qiymətləndirildiyni bildirdi. Bu sırada barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsini qeyd edən seçki dairəsinin sədri növbədənkənar seçkilərdə də bu üsuldan istifadə olunacağını bildirdi: "Artıq seçki məntəqələri mürəkkəb və bənövşəyi lampalarla təmin edilib. Bundan başqa, səsvermə qutuları da məntəqələrdə saxlanılır. Əgər kimsə müəyyən səbəblər üzündən seçki məntəqəsinə gələ bilməyəcəksə, o zaman həmin seçicinin yaşadığı ünvana seçki qutusu aparılacaq və onun səsvermə hüququ təmin olunacaq".

Seçki dairəsinin sədri MSK tərəfindən təşkil olunan maarifləndirmə layihələrinin də əhəmiyyətindən söhbət açaraq dedi ki, bu tədbirlər aşağı seçki komissiyasının üzvlərinin bilik və bacarıqlarının artırılmasında, seçki günü qarşıya çıxan hər hansı problemin aradan qaldırılmasında mühüm rol oynayır. Bundan başqa, Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış təlimatlar, "Yaddaş kitabçası" və digər sənədlər də komissiya üzvlərinin köməyinə çatır. Belə nəşrlərdə seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki məntəqəsinin açılması, səsvermə saatlarında tədbirlər, səsvermə prosesində müstəsna hallar, seçki məntəqəsinin bağlanması, səslərin hesablanması və səsvermənin nəticələri barədə rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün seçki günü prosedurları ilə bağlı aydın və müfəssəl məlumat verilir.

Seçki Məcəlləsinin müvafiq müddəaları və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında hazırlanan yaddaş kitabçası dairə və məntəqə seçki komissiyalarının üzvlərinə, müşahidəçilərə, habelə maraqlanan seçki subyektlərinə çatdırılıb.

"Seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsi üçün hər cür imkan və zəngin qanunvericilik bazamız var. Növbədənkənar parlament seçkilərində də beynəlxalq ictimaiyyət bunun bir daha şahidi olacaq"– deyə dairə sədri bildirdi.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Şəkidə regional seminar

**Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı ilə iyulun 17-də Şəki şəhərində keçirilən regional seminarda seçki hüququnun pozulmasına dair müraciətlərə baxılması məsələləri ətraflı müzakirə olunub.**

Seminarda MSK Katibliyinin rəsmiləri, respublikanın şimal-qərb bölgəsində, ətraf şəhər və rayonlarda fəaliyyət göstərən 17 seçki dairəsi dairə seçki komissiyalarının hər birindən 3 ekspert olmaqla, ümumilikdə aşağı seçki komissiyalarının 51 təmsilçisi iştirak edib.

Seminarı MSK Katibliyinin müdiri İlqar Əlizadə açaraq Milli Məclisə seçkilərə hazırlıqla əlaqədar Komissiya tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verib. Bildirilib ki, regional seminarların keçirilməsində əsas məqsəd dairə seçki komissiyalarının ekspert qrupu üzvlərinin seçki prosedurları ilə bağlı məlumatlarının artırılması və praktiki vərdişlərinin gücləndirilməsindən ibarətdir.



Sonra İlqar Əlizadə "Seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri" mövzusunda təqdimatla çıxış edib. Əyani vəsaitlərdən istifadə olunmaqla keçirilən təqdimatda seminar iştirakçılarına seçki qanunvericiliyi, seçki hüquqlarının pozulması ilə bağlı şikayətlərin verilməsi, şikayət vermək hüququna malik subyektlər, şikayətin predmeti, vətəndaşlar tərəfindən təqdim edilən şikayətlərin forması və məzmunu, şikayət və müraciətlərin xarakteri, araşdırılma müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, şikayətə dair qərar qəbul olunması müddəti, şikayətin qəbul edilməsindən sonra növbəti prosedurlar və digər məsələlər barədə ətraflı izahat verilib.

Sonra MSK Katibliyinin hüquq şöbəsinin müdiri Rafiq Abbasovun "Seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması. Ekspert qruplarının fəaliyyətinin əsasları" mövzusunda təqdimatı dinlənilib.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 334** **Bakı şəhəri, 9 iyul 2024-cü il**

**"Azərbaycan Respublikası Prezidentinin "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 iyul tarixli 1119 nömrəli, "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" 2021-ci il 22 iyun tarixli 1375 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1756 nömrəli, "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1757 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2023-cü il 26 may tarixli 2151 nömrəli və "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 26 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikası Prezidentinin "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 iyul tarixli 1119 nömrəli, "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" 2021-ci il 22 iyun tarixli 1375 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1756 nömrəli, "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1757 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2023-cü il 26 may tarixli 2151 nömrəli və "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 26 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 234 nömrəli və 22 may tarixli 270 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin Normaları"nın 4-cü hissəsinin ikinci abzasında "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 229) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın 6-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 92-ci sətrin "Dövlət qurumunun adı" sütununda "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

2.2. 93-cü sətrin "Dövlət qurumunun adı" sütununda "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

2.3. 94-cü sətrin "Dövlət qurumunun adı" sütununda "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 17-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasda "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

3.2. üçüncü abzasda "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

3.3. dördüncü abzasda "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# İslamafobiya ilə mübarizə təhsil sferasına çıxarılır



**Malayziyanın Kuala Lampur şəhərindəki Beynəlxalq İslam Düşüncəsi və Sivilizasiyası İnstitutunda "İslamofobiya və təhsil" mövzusunda 2 günlük beynəlxalq dəyirmi masa keçirilir.**

Müzakirələrdə ölkəmizi təmsil edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov dünən ümumi iclasda məruzə ilə çıxış edib. "Birgə tərəfdaşlıqların araşdırılması" mövzusunda bugünkü bölmə iclasının moderatorluğunu isə soydaşımız aparır. Səfər çərçivəsində Malayziyanın baş naziri Ənvər İbrahimlə görüşən Rəvan Həsənov Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təcrübəsinin islamofobiya ilə mübarizədə önəmini vurğulayıb.

Azərbaycan, Malayziya, Pakistan, Türkiyə, Böyük Britaniya, ABŞ və İndoneziyadan olan alim və mütəxəssilərin iştirak etdiyi dəyirmi masa görüşünün məqsədi islamofobiya və təhsillə bağlı işçi qrupunun yaradılmasıdır. Qrup islamofobiyanın universitet nizamına uyğun olaraq təhsil sahəsinə çevrilə biləcəyini araşdıracaq. İdeya islamafobiya təhsilini sistemli və strukturlaşdırılmış şəkildə inkişaf etdirmək və bu kursu dünya universitetlərinə təqdim etməkdən ibarətdir.

***XQ***

# Diaspor nümayəndələri Qarabağda



**Qazaxıstanda fəaliyyət göstərən diasporumuzun rəhbərlərindən və fəallarından, qardaş xalqın təmsilçilərindən ibarət nümayəndə heyəti Azərbaycana səfər çərçivəsində Füzuliyə və Şuşaya səfər edib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, Füzuliyə gedərkən qonaqlar yolboyu erməni barbarlığının sübutu olan dağıdılmış, viran qoyulmuş kəndləri görüb, vandalizm aktlarını pisləyiblər. Qonaqlara rayonda aparılan yenidənqurma, təmir-bərpa işləri haqqında ətraflı məlumat verilib. Onlar yenidənqurma və təmir-bərpa işlərini böyük məmnunluqla müşahidə ediblər.

Nümayəndə heyətinin ölkəmizə səfərinin şüarına uyğun olaraq "Prezidentlərin izi ilə!" hərəkət edən qonaqlar Füzuli rayonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin birlikdə açılışını etdikləri Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə gəliblər. Mərkəzin 3D modelləşdirmə, səsyazma studiyası, kompüter, musiqi, xalçaçılıq və digər yaradıcılıq otaqları ilə tanış olan nümayəndə heyəti uşaqlar üçün yaradılmış imkanları yüksək qiymətləndiriblər.

Sonra qonaqlar Şuşaya yola düşüblər. Burada da erməni qəsbkarlarının otuz illik işğal dövründə törətdikləri vəhşiliklərdən sonra aparılan bərpa və yenidənqurma işləri ilə tanış olublar. Onlar güllələnmiş heykəllər, Yuxarı Gövhər Ağa məscidi, İsa bulağı, Vaqifin məqbərəsi, Cıdır düzü və digər görməli yerləri ziyarət ediblər.

Diaspor nümayəndələri və qazax xalqının təmsilçiləri Cıdır düzündə böyükölçülü bayraq açaraq qürurla dalğalandırıb, xatirə şəkilləri çəkdiriblər.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 337** **Bakı şəhəri, 13 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 960 (Cild I) ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"na aşağıdakı məzmunda on beşinci sətir əlavə edilsin:

| | |
|---|---|
| "Yeni Klinika" publik hüquqi şəxs | qaraciyər, böyrəklər |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 338** **Bakı şəhəri, 13 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 961 (Cild I) ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı"na aşağıdakı məzmunda on beşinci sətir əlavə edilsin:

| | |
|---|---|
| "Yeni Klinika" publik hüquqi şəxs | qaraciyər, böyrəklər |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 339** **Bakı şəhəri, 15 iyul 2024-cü il**

**"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 8 yanvar tarixli 2 nömrəli Qərarı) 2-ci hissəsində "iyulun" sözü "oktyabrın" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 340** **Bakı şəhəri, 15 iyul 2024-cü il**

**"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459) 2-ci hissəsində "iyulun" sözü "oktyabrın" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 341** **Bakı şəhəri, 17 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 may tarixli 247 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 2-ci hissəsindən "və bitum" sözləri çıxarılsın.

**2.** Bu Qərar 2024-cü il avqustun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 342** **Bakı şəhəri, 17 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, №1, maddə 127, №2, maddə 244, №4, maddə 465; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 iyul tarixli 330 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə "8702 40 000 9" alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "0" rəqəmi ilə əvəz edilsin.

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir və 2025-ci il yanvarın 1-dək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan sağlam maliyyə özülü üzərində yüksəlir

## *Bu, ölkəmizdə islahat paketlərinin uğurlu icrasından xəbər verir*

**Bu ilin ilk yarısında ölkəmizin iqtisadiyyatında artım müşahidə edilib. Hesabat dövründə uğurlu göstəricilərin əldə olunması ilə ölkəmizin maliyyə vəziyyəti yüksək dərəcədə yaxşılaşıb. Bunu isə, ik növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın gerçəkləşdirilməsi kimi amillər şərtləndirib.**



Bu məqamda onu da bildirək ki, ölkənin qeyri-neft-qaz sektorunun dinamik inkişafını bildirən göstəricilər əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğur makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Azərbaycanda lazım olan bütün istehsalat sahələrinin yaradılması, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühiti, siyasi sabitlik, xalq-iqtidar birliyi, təhlükəsizlik təmin edilib, əlverişli coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var. Bütün bunlar Maliyyə Nazirliyinin ilin ilk yarısı üzrə büdcə məlumatında da öz ifadəsini tapır.

Həmin məlumatda qeyd edilir ki, cari ilin dövlət büdcəsində dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı 1 milyard 972,6 milyon manat məbləğində xərclər nəzərdə tutulub. Bu ilin yanvar–iyun aylarında dövlət büdcəsinin dövlət borcuna xidmət xərclərindən daxili dövlət borcu üzrə 170,1 milyon manatın (faiz borcu üzrə), xarici dövlət borcu üzrə 1 milyard 100,2 milyon manatın (əsas borc üzrə 850 milyon manat, faiz borcu üzrə 250,2 milyon manat, bank xidmətləri haqqının ödənilməsi 0,02 milyon manat), cəmi 1 milyard 270,3 milyon manatın ödənilməsi təmin edilib.

Xarici borclanma hesabına icrası həyata keçirilən layihələr çərçivəsində vəsaitin istifadəsi üzrə təqdim edilən operativ məlumatlar və xarici dövlət borcu üzrə əsas borc ödənişləri nəzərə alınmaqla, ötən 6 ay ərzində xarici dövlət borcu 5 milyard 367,5 milyon dollar ekvivalentinə bərabər olub.

Daxili dövlət borcalmasının həcminin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlik əyrisinin formalaşdırılması və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində daxili dövlət borcu 2024-cü il iyulun 1-də 1 milyard 6571,9 milyon manat təşkil edib.

Yeri gəlmişkən, burada xarici dövlət borcunun davamlı azalmasını şərtləndirən əsas amillərə də toxunmaq istərdik. Belə ki, bu məsələdə dövlət başçısının 22 iyul 2022-ci il tarixli müvafiq sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" böyük əhəmiyyətə malikdir. Strategiyada 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faizini, o cümlədən xarici dövlət borcunun 10 milyard dolları üstələməməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Adıçəkilən sənəd imzalanana qədər xarici dövlət borcunun azalması probleminin həllində ölkə Prezidenti tərəfindən 2018-ci il 24 avqust tarixli sərəncamla təsdiqlənən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" mühüm rol oynayıb. Lakin ötən dövr ərzində dünyada baş verən müəyyən hadisələr, məsələn, koronavirus pandemiyası ölkəmizin makroiqtisadi sabitliyinə, məşğulluq və sahibkarlıq subyektlərinin fəaliyyətinə mənfi təsir göstərib. Daha sonra isə işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və yenidən qurulması zərurətindən irəli gələn yeni sosial-iqtisadi çağırışlar meydana gəlib. Bütün bunlar isə "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da müəyyən düzəlişlər aparılması ilə nəticələnib.

Bu məqamda "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ifadə olunan bir məsələni də vurğulamaq yerinə düşərdi. Belə ki, adıçəkilən milli prioritetlərdə bildirilir ki, daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Bax, elə bütün bunlara görə də hazırda istər daxili, istərsə də xarici borcun qarşılanması makroiqtisadi sabitliyin əsas meyarı olan qiymətlərin aşağı və sabit olmasının gerçəkləşdirilməsi, idarəetmənin institusional çərçivəsinin təkmilləşdirilməsi və maliyyə bazarlarının səmərəli fəaliyyət göstərmələri diqqətdə saxlanılır. Nəticə isə xarici dövlət borcunun azalmasını əks etdirən müsbət dinamika ilə müşahidə olunur.

Maliyyə Nazirliyinin məlumatına görə, hesabat dövründə dövlət büdcəsinin vəsaiti hesabına əsas dövlət vəzifələrinin yerinə yetirilməsi üçün maliyyələşmələr, o cümlədən əməkhaqları, müavinətlər, pensiyalar, dövlət borcu üzrə öhdəliklərin və digər zəruri xərclərin maliyyələşdirilməsi müvafiq təşkilatların dövlət xəzinədarlıq orqanlarına təqdim etdikləri xərc sifarişləri əsasında tam və vaxtında reallaşdırılıb.

Bu dövrdə dövlət büdcəsinin xərcləri 16 milyard 52,1 milyon manat və ya təsdiq olunan proqnoza qarşı 2 milyard 297,8 milyon manat (16,7 faiz) çox icra edilib. 6 ayda icrası gerçəkləşdirilən xərclər bu ilin dövlət büdcəsinin 43,7 faizini təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,3 faiz çox olub.

Məlumatda bildirilir ki, hesabat dövründə dövlət büdcəsi xərclərinin 9 milyard 833,8 milyon manatı və ya 61,3 faizi cari xərclərə (2023-cü ilin eyni dövrü ilə müqayisədə 115 milyon manat və ya 1,2 faiz çox), 4 milyard 948 milyon manatı və ya 30,8 faizi əsaslı xərclərə (2023-cü ilin eyni dövrü ilə müqayisədə 1034,3 milyon manat və ya 26,4 faiz çox), 1 milyard 270,3 milyon manatı və ya 7,9 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə (2023-cü ilin eyni dövrü ilə müqayisədə 839,5 milyon manat və ya 2,9 dəfə çox) yönəldilib.

Yanvar-iyun aylarında dövlət büdcəsinin təhsil xərcləri 2 milyard 239,1 milyon manat (131,5 faiz), müdafiə və milli təhlükəsizlik xərcləri 3 milyard 47,6 milyon manat (126,9 faiz), sosial müdafiə və sosial təminat xərcləri 2 milyard 91,5 milyon manat (123,1 faiz), kənd təsərrüfatı xərcləri 491 milyon manat (119 faiz), səhiyyə xərcləri 803 milyon manat (114,7 faiz), ətraf mühitin mühafizəsi xərcləri 128,2 milyon manat (90,9 faiz) təşkil edib.

Maliyyə Nazirliyinin məlumatına görə, hesabat dövründə dövlət büdcəsinin gəlirləri 16 milyard 940,6 milyon manat proqnoza qarşı 18 milyard 842,9 milyon manat təşkil edib ki, bu da proqnozla müqayisədə 1 milyard 902,3 milyon manat və ya 11,2 faiz, 2023-cü ilin eyni dövrü ilə müqayisədə isə 21,7 faiz və ya 3 milyard 363 milyon manat çox olub.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri 18 faiz çox reallaşdırılmaqla 12 milyard 452,4 milyon manata yüksəlib.

Hesabat dövründə dövlət büdcəsinin daxilolmalarının 8 milyard 282,4 milyon manatı və ya 44 faizi vergi daxilolmalarının, 6 milyard 390,5 milyon manatı və ya 33,9 faizi Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 3 milyard 252,2 milyon manatı və ya 17,3 faizi gömrük rüsumları və idxala görə vergi daxilolmalarının, 17,8 milyon manatı dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların payına düşüb.

Maliyyə Nazirliyinin məlumatında bildirilir ki, cari ilin yanvar-iyun ayları üzrə dövlət büdcəsinin altı aylıq gəlirləri üçün təsdiqlənən proqnozdan vergi daxilolmaları 1 milyard 053,8 milyon manat (14,6 faiz), gömrük rüsumları və idxala görə 418,2 milyon manat (14,8 faiz), dövlət əmlakının icarəyə verilməsindən 3,7 milyon manat (26,2 faiz) təşkil edib.

Yuxarıda qeyd edilənlərlə yanaşı, cari ilin I yarısında Azərbaycan hökuməti işğaldan azad olunan ərazilərin yenidən qurulmasına və bərpasına 1 milyard 953,5 milyon manat vəsait yönəldib.

Maliyyə Nazirliyinin bu barədə məlumatında bildirilir ki, həmin göstərici 2024-cü ilin dövlət büdcəsində sözügedən məqsədlə nəzərdə tutulmuş 3 milyard 825 milyon manat vəsaitin 51,1 faizi deməkdir.



## Tankerimiz 2 milyon ton yük daşıyıb

**2024-cü ilin yanvar-iyun aylarında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) tankerləri ilə 2 milyon 9536 ton yük daşınıb.**

ASCO-dan verilən məlumata görə, bərə və Ro-Pax tipli gəmilərlə daşınan vaqonların sayı 19 min 68 ədəd, yük avtomobillərinin sayı 17 min 660, minik avtomobillərinin sayı isə 1079 ədəd olub. Həmçinin bu gəmilərlə 13 min 433 sərnişin daşınıb.

Məlumata görə, hesabat dövründə universal quru yük gəmiləri ilə 363 min 818 ton yük nəql edilib.

## Sumqayıt Kimya Parkında 2 yeni müəssisə

**Bu il Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiya dəyəri 39,2 milyon manat olan "Kartaş Kimya" MMC-nin tikinti kimyəviləri, eləcə də "Az-Tex-Import" MMC-nin "IVECO" markalı yüngül, orta və ağır tonnajlı yük avtomobilləri istehsalı müəssisələrinin fəaliyyətə başlaması nəzərdə tutulur.**



"Kartaş Kimya" MMC-nin direktoru Necmeddin Taşbağın mediaya bildirdiyinə görə, artıq tikinti kimyəvilərinin istehsalı müəssisəsində inşaat işləri tamamlanmaq üzrədir. Yaxın aylarda burada avadanlıqların quraşdırılması işlərinə başlanılacaq. 250 nəfərin daimi işlə təmin ediləcəyi müəssisənin investisiya dəyəri 20 milyon manatdır, layihə üzrə indiyədək görülən işlərə artıq 15 milyon manatdan çox sərmayə qoyulub.

Onun sözlərinə görə, zavodda tikinti kimyəvilərinin istehsalı ilə yanaşı, ölkə ərazisində ilk dəfə olaraq müxtəlif təyinatlı su izolyasiya materiallarının istehsalı da nəzərdə tutulur.

İnvestisiya dəyəri 19,2 milyon manat olan yük avtomobillərinin istehsalı müəssisəsində isə 90 nəfər daimi işlə təmin olunacaq. İl ərzində 100 ədəd avtomobilin istehsal olunacağı müəssisənin məhsulları daxili bazarda satılmaqla yanaşı, Rusiya, Gürcüstan, Türkmənistan və İrana ixrac ediləcək.

# Yarım ildə kənd 6 milyard manatlıq məhsul yetirib

**Ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər bütün digər sahələr kimi aqrar bölmənin də inkişafı üçün əlverişli zəmin yaradır. Hazırda əhalisinin təqribən yarısının bölgələrdə yaşadığı Azərbaycanda aqrar sahənin inkişafı, daxili bazarın mühüm kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin kənd təsərrüfatına xüsusi diqqət və qayğısı, eləcə də dövlətin həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı tədbirlərin nəticəsidir ki, son illər bu sahəyə maraq getdikcə artır.**

Eyni zamanda, dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması kənd təsərrüfatında təşəbbüskarlığa geniş meydan açır. Bütün bunlar isə ölkədə məhsul bolluğuna təminat yaratmaqla yanaşı, yerlərdə iqtisadi fəallığın artmasına səbəb olur. Təkcə onu qeyd etmək kifayətdir ki, son 10 il ərzində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı 46,8 faiz artıb. Ötən dövrdə ölkədə bitkiçilik məhsullarının istehsalında 53 faiz, heyvandarlıq məhsullarının istehsalında isə 42,5 faiz artım qeydə alınıb. Bu da kənd təsərrüfatı və ərzaq məhsullarının ixracının təqribən 30 faiz artmasına imkan yaradıb.

Aqrar sektorda müşahidə olunan müsbət dinamika cari ilin ötən dövründə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin birinci yarısında Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 6 milyard 19,7 milyon manat təşkil edib. Bunun da 3 milyard 138,7 milyon manatı heyvandarlıq, 2 milyard 881 milyon manatı isə bitkiçilik məhsullarının payına payına düşüb. Bu ilin ilk 6 ayında əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi istehsalı 0,3 faiz artıb. Hesabat dövründə heyvandarlıq məhsulları üzrə 2,1 faiz artım qeydə alınsa da, bitkiçilik məhsullarının istehsalında 1,4 faiz azalma baş verib.

Bununla belə, kənd təsərrüfatının bitkiçilik bölməsində məhsul istehsalının artırılması üçün imkanlar genişdir. Bu səbəbdəndir ki, son illər istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə cəlb edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Əkin sahələrinin genişləndirilməsi isə məhsul bolluğuna təminat yaradan mühüm amildir. Bu məqsədlə ötən ilin payızından başlayaraq 2024-cü ilin məhsulu üçün müxtəlif bitkilərin əkini intensiv qaydada davam etdirilib.

Artıq ölkədə yaz-tarla işləri başa çatıb. Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, 2024-cü il iyul ayının 1-dək ölkə üzrə 375 min hektar sahədə yazlıq bitkilər, o cümlədən 64,9 min hektar sahədə dənli və dənli paxlalı bitkilər (ondan 29,2 min hektarı dən üçün qarğıdalı), 46,8 min hektar sahədə kartof, 62,5 min hektar sahədə tərəvəz, 19,4 min hektar sahədə bostan bitkiləri, 103,1 min hektar sahədə pambıq, 14,2 min hektar sahədə dən üçün günəbaxan, 6,8 min hektar sahədə şəkər çuğunduru, 2,6 min hektar sahədə tütün, 49,7 min hektar sahədə çoxillik otlar, 4,1 min hektar sahədə birillik otlar və 0,9 min hektar sahədə sair yazlıq bitkilər əkilib. Ayrı-ayrı günlərdə müşahidə olunan əlverişsiz hava şəraitinə baxmayaraq, sahələrdə bol məhsul yetişdirilməsinə nail olunub.

Ötən müddətdə məhsulun optimal vaxtda və itkisiz yığılması üçün bütün imkanlardan maksimum istifadə edilib.



Operativ məlumatlara əsasən, iyul ayının 15-dək Azərbaycandakı taxıl sahələrinin 85 faizində biçin başa çatıb. Kənd Təsərrüfatı Nazirliyindən bildirilib ki, artıq arpa sahələrinin 95,8 faizi, buğda sahələrinin isə 77,2 faizi biçilib. Sahələrdən 2 milyon 691 min 552 ton məhsul yığılıb. Yığılan məhsulun 1 milyon 492 min 746 tonu buğda, 1 milyon 198 min 806 tonu isə arpadır. Buğda üzrə orta məhsuldarlıq 33 sentner, arpa üzrə məhsuldarlıq isə 29,4 sentner təşkil edir. Ümumilikdə, taxıl üzrə hektarın orta məhsuldarlığı 31,3 sentnerə çatıb.

Hazırda dağlıq və dağətəyi ərazilərdə biçin prosesi sürətlə davam etdirilir. Ötən müddətdə biçin prosesinə 925 kombayn cəlb olunub. Bunlardan 282-si "Aqroservis" ASC-nin, 643-ü isə fiziki və hüquqi şəxslərin balansında olan texnikalardır. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə mexanizatorlar 60 min 148 hektar daha çox sahədə biçin həyata keçiriblər.

Yanvar-iyun aylarında təsərrüfatlarda 859,2 min ton tərəvəz istehsal olunub. Yeri gəlmişkən, bu il iyul ayının 1-nə ölkədə ümumi sahəsi 1,6 min hektar olan 3027 vahid istixana fəaliyyət göstərib. Ötən müddətdə həmin istixanalarda 171,2 min ton pomidor və 7,3 min ton xiyar istehsal edilib. Cari ilin yanvar-iyun aylarında ölkə üzrə 358,1 min ton kartof, 174,6 min ton meyvə və giləmeyvə, 127,8 min ton bostan məhsulları, 10,7 min ton şəkər çuğunduru, 572,4 ton tütün və 495,8 ton yaşıl çay yarpağı yığılıb. Hesabat dövründə dənli və dənli-paxlalılar, kartof, tütün və yaşıl çay yığımında bir qədər azalma müşahidə olunsa da, tərəvəz, meyvə və giləmeyvə, bostan məhsulları və şəkər çuğunduru istehsalında əhəmiyyətli artım qeydə alınıb. Hazırda ölkəmizdə kənd təsərrüfatı məhsullarının yığımı davam edir.

Kənd təsərrüfatının ikinci əsas sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsi üçün də ölkədə mühüm tədbirlər həyata keçirilib. Bu baxımdan sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülən işlər mal-qaranın baş sayının artmasına və heyvanların məhsuldarlığının yüksəlməsinə səbəb olub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin yanvar-iyun aylarında ölkədə quş əti də daxil olmaqla diri çəkidə 290,3 min ton ət, 1 milyon 134,1 min ton süd, 1 milyard 189,1 milyon ədəd yumurta, 13,8 min ton yun və 239,5 ton barama istehsal olunub. 2023-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,7 faiz, süd istehsalı 1 faiz, yumurta istehsalı 7,4 faiz artıb. Bununla belə, hesabat dövründə yun istehsalı 1,6 faiz, barama istehsalı isə 32,8 faiz azalıb.

Aqrar sahədə mövcud potensialdan səmərəli istifadə olunması, əkin sahələrinin genişləndirilməsi, eləcə də heyvandarlığın inkişaf etdirilməsi üçün göstərilən dövlət dəstəyi ölkənin ərzaq təhlükəsizliyinə və ixrac potensialının artırılmasına mühüm töhfələr verir. Qarşıdakı illərdə isə kənd təsərrüfatının hər il orta hesabla 4 faiz artacağı proqnozlaşdırılır. Elə Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında bir çox sahələrdə olduğu kimi, aqrar sektorda müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artacağı, həmçinin yeni iş yerlərinin yaradılacağı qeyd olunub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# Ekoloji problemlərdən qlobal təhlükəsizliyə keçid

**Xəzər dənizi mühüm xalq təsərrufatı əhəmiyyətinə malik olmaqla yanaşı, həm də coğrafi, bioloji və ekoloji cəhətdən bütöv bir sistemdir. Lakin bu sistemi qoruyub saxlamaq o qədər də asan deyil. Çünki hər il dünyada neft və qaza tələbat çoxalır, bu, dənizdə neft və qaz hasilatının artırılmasını gündəmə gətirir. Azərbaycanda olduğu kimi, Qazaxıstan, Türkmənistan və Rusiyada da iri neft-qaz yataqları istismara açılır. Həmin yataqların hasilatı isə dənizi çirikləndirir. Bu barədə AMEA Coğrafiya İnstitutunun əməkdaşı, coğrafiya üzrə fəlsəfə doktoru, ekoloq Züleyxa Eyyubova ilə söhbət etdik. O dedi:**



– Aparılan qazma işləri zamanı çirkab suları uzun illər dənizə axıdılıb. Dalğalar isə həmin çirkab suları sahilə gətirərək torpaq qatının çirklənməsinə səbəb olub. Bundan başqa, neft-qaz yataqlarının kəşfi, həmçinin istifadəsi nəticəsində dənizdə neft quyularının, eskadaların tikintisi və boru kəmərlərinin çəkilməsi həyata keçirilib. Artiq bu qurğuların çox hissəsinin istifadə müddəti başa çatib. Dənizdə çirkli suların həcmi də çoxalır və çaylar vasitəsilə dənizə axıdılır.

***– Son dövrlərdə Xəzər dənizində suyun səviyyəsi aşağı düşüb. Amma dəniz səviyyəsinin qalxma ehtimalı da var. Ekoloji şəraitə dəniz səviyyəsinin tərəddüdləri təsir göstərirmi?***

– Maraqlıdır ki, dənizin səviyyəsinin qalxma və enmə prosesi intensiv hal alıb.



Xəzərin səviyyəsinin dəyişməsi sahil zonasında həmişə sosial-iqtisadi və ekoloji problemlər yaradıb. Məsələn, səviyyənin endiyi hallarda bütün hidrotexniki qurğuların, o cümlədən limanların yenidən tikilməsinə ehtiyac yaranıb. Xəzər faunasının məskunlaşdığı və inkişaf etdiyi şelf zonasının sahəsi azalıb, balıqların kürü tökmək üçün çaylara keçməsinə əngəl yaranıb. Bu zonanın hidrometeoroloji rejimində də mənfi dəyişikliklər baş verib.

Səviyyənin qalxdığı hallarda da sahil zonasında ekoloji şərait pisləşib, bataqlıqlar yaranıb, evlər və torpaqlar su altında qalıb. Məsələn, hesablamalara əsasən, 1978–1995-ci illərdə dəniz səviyyəsinin 2,5 metr qalxması nəticəsində Azərbaycanın sahil zonasına 2 milyard ABŞ dolları həcmində ziyan dəyib.

Hazırda Xəzər dənizinin ekoloji təhlükəsizliyini təmin etmək üçün neftlə çirklənmiş ərazilərin və göllərin təmizlənməsi, eləcə də qurudulması günün vacib məsələlərindən biridir.

***– Xəzər dənizini çirkləndirən mənbələr barədə nə deyə bilərsiniz?***

– Xəzərdə çirklənmənin mənbələri çoxdur. Məsələn, çaylarla gələn çirkləndiricilər, o cümlədən kənd təsərrüfatında istifadə olunan gübrələrin yağıntı və suvarma suları ilə yuyularaq çaylar–kanallar vasitəsilə dənizə axması, şəhərlərin və sənaye obyektlərinin çirkləndiriciləri, neft hasilatı və nəqli ilə bağlı çirklənmə, habelə dənizin səviyyəsinin artması nəticəsində sahil zonasında su altında qalmış mənbələrdən qaynaqlanan çirklənmə daim ciddi narahatlıq doğurur.

Qeyd edim ki, Xəzəri çirkləndirən fəaliyyət göstərən müəssisələrin balansındakı özüllərin əksəriyyəti də istismara yararsız vəziyyətdə dəniz akvatoriyasına atılıb. Köhnəlmiş texniki qurğular, batmış gəmilər isə korroziyaya uğrayaraq dənizi çirkləndirib.

Xəzərin çirklənməsinə neft emalı müəssisələri və quruda fəaliyyət göstərən neft və qazçıxarma idarələri tərəfindən də mənfi təsir göstərilib. Bunun nəticəsində keçmişdə dünyada ən məhsuldar su hövzələri sırasında yer alan Xəzər dənizi son onilliklərdə öz öncül mövqeyini tədricən itirib.

***– Su hövzəsinin çirklənməsində çayların rolu da az deyil...***

– Çaylar vasitəsilə hər il Xəzərə 40–45 kubkilometr çirkab daxil olur. Tullantı sularının 70-80 faizi Volqa çayının payına düşür. Bu çayın ətrafında 30 milyona yaxın əhali yaşayır. Onların məişət tullantıları Xəzər dənizinə axıdılır. Qalan 20–30 faiz çirklənmənin mənbəyi Azərbaycan da daxil olmaqla digər Xəzər sahili ölkələridir. Yəni Xəzər sularının çirklənməsinə Kür, Samur, Terek və Ural çayları da təsir göstərir. Məsələn, Ermənistan və Gürcüstan ərazisində formalaşan kommunal və sənaye tullantı suları Kür çayı vasitəsilə Xəzərə daxil olaraq dənizi çirkləndirir.

Xəzərin ölkəmizə mənsub olan sahil zolağında fəaliyyət göstərən müəssisə və təşkilatlardan, obyektlərdən və sahilboyu ərazilərdən dənizə 128 axar qeydə alınıb. Bakı, Sumqayıt, Mahaçqala, Həştərxan, Türkmənbaşı, Rəşt və Ənzəli şəhərlərindən Xəzərə axıdılan tullantı suları da onun əsas çirkləndiricilərindən hesab edilir. Bu şəhərlərdəki sənaye inkişaf etdikcə başqa səbəblər də var. Belə ki, çirklənmə mənbələrindən biri atmosferdır. Aparılmış tədqiqatlar nəticəsində müəyyən olunub ki, atmosferə hər il sənaye müəssisələrindən kükürd karbonoksidi, toz, kül, azot oksidi və başqa kimyəvi maddələr buraxlılır. Bu maddələr havanın hərəkəti ilə quruya, Xəzərin səthinə enir və onu çirkləndirir. Həmin maddələr zərərli olduğundan quruda və suda olan flora və faunaya da ciddi zərər vurur.

***– Bu günlərdə Xəzər dənizinin Hövsan və Türkan sahillərində balıqların kütləvi ölümü müşahidə edildi. Buna səbəb nə idi?***

– Bir neçə səbəb ola bilər. Fikrimcə, balıqların kütləvi ölümü zəhərli maddələrlə bağlı deyil. Həmin ərazilərdə Xəzər dənizi dayazdır və havaların isti keçməsi səbəbindən suyun temperaturu qalxır. Belə halda kimyəvi proseslər sürətlə gedir, oksigenin miqdarı xeyli azalır və orada yaşayan canlı orqanizmlərə mənfi təsir göstərir. Sizin qeyd etdiyiniz balıqların kütləvi ölümünə səbəb də suda oksigen çatışmazlığıdır.

***– Məlum olduğu kimi, Azərbaycan COP29 mötəbər beynəlxalq tədbirinə ev sahibliyi edəcək. Danışıqlar prosesi ilə paralel İqlim Fəaliyyəti gündəliyi çərçivəsində Xəzər dənizi ilə bağlı təşəbbüs də yer alacaq?***

– Bəli, Azərbaycan COP29 mötəbər beynəlxalq tədbirinə ev sahibliyi edəcək. İqlim Fəaliyyəti gündəliyi çərçivəsində Xəzər dənizi ilə bağlı təşəbbüs də yer alacaq. Dənizin probleminin yalnız milli və regional səviyyədə deyil, həm də beynəlxalq səviyyədə iqlim dəyişmələrinə uyğunlaşma proqramları çərçivəsində həlli diqqət mərkəzində olacaq. Bu da öz növbəsində Xəzərin problemlərinin yalnız milli və regional səviyyədə deyil, həm də beynəlxalq səviyyədə iqlim dəyişmələrinə uyğunlaşma proqramları çərçivəsində həlli üçün zəmin yarada bilər.

Bu məsələdə Xəzər dənizini əhatə edən ölkələrin üzərinə də böyük məsuliyyət düşür. Onların beynəlxalq təşkilatlarla əməkdaşlığı dənizin çirklənməsinin qarşısını almaq üçün mühüm fürsətdir. Unutmayaq ki, COP29 iqlim dəyişikliyi ilə mübarizədə böyük gücə malikdir. Düşünürəm ki, Bakıda keçiriləcək iqlim tədbiri bu mövzuya daha çox diqqət çəkməyə və problemin həlli yollarını tapmağa dəstək olacaq.

***Müsahibəni qələmə aldı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Sadiq Qurbanovun ideya rəhbərliyi ilə nəşr olunan “İlham Əliyevin ekoloji siyasəti. Dayanıqlı inkişaf və yaşıl dünya (2003–2023)” üççildliyi müasir eko-təfəkkürün hüquqi, siyasi, mənəvi aspektlərinin zənginləşməsində əhəmiyyətli əyani vəsaitdir.**

Toplunun elmi redaktoru Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, tərtibçilər isə hüquqşünas Səməd Vəkilov və Prezident Kitabxanasının məsul əməkdaşı Zakir İsmayılovdur.

Bu tədbir dünyanın müasir gündəmində ən aktual məsələlərdən biridir. Komissiya sədri Sadiq Qurbanov təşəbbüs istiqamətdə həm ölkə daxilində, həm də xaricdə apardığı böyük ekoloji siyasətinin bəhrəsidir.

# Ekoloji siyasət və dayanıqlı inkişaf



Üççildlik topluda Pezident İlham Əliyevin ekoloji siyasətinin bütün təfərrüatları geniş formada əksini tapır. Həmçinin bu istiqamətdə formalaşan qanunvericilik bazası xronoloji və aydın olaraq sıralanır. Kitabların mühüm bir fəlsəfəsi həm də sübut edir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçirilməsi dövlət başçımızın uzun illər ərzində bu göstərib bu kitabları ərsəyə gətirməklə elmi-ictimai mühitə böyük töhfə vermiş, sözügedən istiqamətin mənbəşünaslıq bazasını zənginləşdirərək mühüm bir eko-elmi-innovativ layihəyə imza atmışdır.

***Hüseyn İBRAHİMOV,***
***fəlsəfə doktoru,***
***“Yaşıl enerji”yə Dəstək***
***Elmi-İnnovativ Təşəbbüs Qrupu***
***Əlaqələndirmə Şurasının həmsədri***

# Azərbaycan Avropanın “yaşıl enerji” təchizatçısına da çevrilir




**(əvvəli 1-ci səhifədə)**

Baş direktorun sözlərinə görə, IRENA az karbonlu enerji keçidini sürətləndirmək və davamlı inkişafa nail olmaq kimi məsələləri daim diqqətdə saxlayıb. Eyni zamanda bu məsələdə bərpaolunan enerji mənbələrindən daha sürətli şəkildə istifadə etmək üçün struktur maneənin üç əsas sahəsini müəyyənləşdirib. Lakin bununla belə IRENA-da balanslaşdırılan, bir-birinə sıx bağlı olan enerji sistemi hələ də yaradılmayıb, lazımi strategiyalar hazırlanmayıb. Buna görə də təşkilatımızda bu və ya digər istiqamətlər üzrə layihələr gerçəkləşdirmək qarşıya mühüm vəzifələr kimi qoyulub.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi rəhbərinin sözlərinə görə, enerji səmərəliliyi də daxil olmaqla “yaşıl enerji” texnologiyalarına qlobal investisiyalar 1,3 trilyon dollara yüksəlib. Bu, yeni rekord kimi qeydə alınıb. Ümumiyyətlə, bütöv sistemdən danışarkən sərmayələri 4 dəfə artıraraq 5,2 trilyon dollara çatdırmaq zəruri hesab edilib.

Françesko La Kameranın bildirdiyinə əsasən, hazırda təmiz hidrogen, davamlı biokütlə tətbiqləri və bərpaolunan enerji qurğularının sürətləndirilməsi üçün müəyyən addımların atılmasına zəruri ehtiyac duyulur. Şübhəsiz ki, hidrogen hələ də tam rəqabətqabiliyyətli olmadığından bu sahədə istehsalın maya dəyərinin aşağı düşdüyü müşahidə edilir. Ümumiyyətlə, hidrogenə olan tələbatı dəstəkləmək, bazarı istiqamətləndirmək, bu sahəyə kifayət qədər tələbatı gerçəkləşdirmək üçün strategiyaya ciddi ehtiyacı var.

IRENA-nın baş direktoru sonda vurğulayıb ki, 2024-cü ildə Azərbaycanda keçiriləcək COP29 dünyanın ən aktual bəşəri problemlərinin müzakirə olunduğu mühüm beynəlxalq platformadır. Bu tədbirin Azərbaycanda keçirilməsi böyük etimadın göstəricisi olmaqla, ölkənin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş mövqeyini təsdiqləyir.

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə öz töhfəsini verir. SOCAR-ın COP28-də metan tullantılarının sıfıra endirilməsi ilə bağlı könüllü öhdəlik götürməsi də respublikanın iqlim problemlərinə həssaslığının təzahürüdür.

“Yaşıl iqtisadiyyata keçid” və “yaşıl enerji” təchizatçısına çevrilmək Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindəndir. Dövlət başçısının müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi də bu istiqamətdə təşəbbüsləri stimullaşdırır.

***XQ***

# Könüllülər üçün “yaşıl” layihələr




**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və "Azexport.az" portalının təşəbbüsü ilə könüllü tələbələr üçün “yaşıl söhbətlər” layihəsinin reallaşdırılmasına başlanılıb. Bu barədə İİTKM məlumat yayıb.**

“Azexport.az” portalının rəhbəri Ayxan Qədəşov “Yaşıl” iqtisadiyyatın inkişafında elektron kommersiyanın rolu” məruzəsini təqdim edib. Qeyd edilib ki, gənc nəsil “yaşıl” iqtisadiyyat konsepsiyasından xəbərdar olmalı, resursların səmərəli idarə olunmasının, ekoloji cəhətdən təmiz və müasir texnologiyalardan istifadənin əhəmiyyətini anlamalıdır. Eyni zamanda elektron ticarətin “yaşıl” iqtisadiyyat proseslərinə imkan yarada biləcəyi vurğulanıb.

Könüllü tələbələrlə keçirilən görüş zamanı rəqəmsal ödənişlərin üstünlükləri və rəqəmsal özünüməşğulluq perspektivləri müzakirə olunub. Bundan əlavə, təlimdə “Amazon”, “eBay”, “Alibaba” və digər böyük platformalarda satışların əsasları öyrənilib.

Qeyd edək ki, “Yaşıl söhbətlər” layihəsi ölkədə “yaşıl” düşüncənin formalaşmasını dəstəkləmək məqsədi daşıyır. Bu layihə 2024-cü il üzrə elan edilmiş “Yaşıl dünya naminə həmrəylik” konsepsiyasına cavab verir.

***XQ***

# Dünya Bankı ilə COP29 müzakirəsi



**Energetika naziri Pərviz Şahbazov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlikdən verilən məlumata görə, görüşdə Azərbaycanla Dünya Bankı arasında enerji sektorunda əməkdaşlığın inkişafı, ölkəmizdə “yaşıl enerji”nin inteqrasiyasının təmin edilməsi məqsədilə ötürücü şəbəkənin gücləndirilməsi layihəsi, o cümlədən “Masdar” şirkəti tərəfindən reallaşdırılan günəş və külək elektrik stansiyalarının enerji sisteminə qoşulması ilə bağlı görülmüş işlər müzakirə edilib.

Tədbirdə “Azərenerji” ASC-nin nümayəndələri də iştirak ediblər.

***XQ***

# Hərbi Prokurorluqda geniş kollegiya iclası





**İyulun 17-də Hərbi Prokurorluqda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində 2024-cü ilin birinci yarısında görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

İclasda hərbi prokuror vəzifəsini müvəqqəti icra edən hərbi prokurorun müavini ədliyyə general-mayoru Şəfahət İmranov hesabat məruzəsi ilə çıxış edib.

Məruzədə qeyd edilib ki, cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin ümumilikdə 98,6 faizi, o cümlədən bəzi qəbildən olan cinayətlərin 100 faizinin üstünün açılması təmin edilib.

Hesabat dövründə qeydə alınmış cinayətlər ötən ilin birinci yarımili ilə müqayisədə ümumilikdə 28,2, hərbi xidmət əleyhinə olan cinayətlər 25,2, qeyri-hərbi cinayətlər isə 31,2 faiz azalıb.

Məruzə ətrafında çıxış edənlər hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

**XQ**

# Xankəndidə hərbçilərlə görüş

**Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə respublika rəhbərliyinə seçilməsinin 55 illiyi münasibətilə və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları Xankəndidə yerləşən hərbi hissələrdən birində birgə tədbir keçiriblər.**



Tədbirdə general-mayor Bilal Çompuzov, Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri baş ədliyyə müşaviri Firad Əliyev və başqaları çıxış edərək Ulu öndərin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətləri barədə danışıblar.

Tədbirdə ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələbləri, hüquq və vəzifələr, həmçinin ekoloji qanun pozuntuları, ekoloji cinayətlər və məsuliyyət barədə müzakirələr aparılıb.

Sonda ağaclar əkilib.

# Naxçıvan xəbərləri

## Aqrar lizinq təlimi



**Naxçıvan Biznes Mərkəzində "Kapital Bank" ASC-nin mütəxəssisləri aqrar sahədə lizinq fəaliyyətinin təşkilinə dair təlim keçiriblər.**

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova 2023-cü ildən başlayaraq Naxçıvanda lizinq qaydalarının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib. Nazir müavini qeyd edib ki, Naxçıvanda 2022-ci ilin sonundan etibarən lizinq qaydaları ləğv olunub. Bu da istehsalçıların bu xidmətlərdən faydalanmasında bir sıra çətinliklər yaradıb. Ötən ildən etibarən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bu sahədə təkmilləşdirilmə aparılaraq yeni qaydalar təsdiq olunub. Cari ildə isə mexanizm hazırlanıb və müvəkkil bank olaraq "Kapital Bank" ASC seçilib. İyulun 16-dan bankın əməkdaşları Naxçıvana ezam olunub, həm nazirliyin, həm də "Naxçıvan Aqroservis" ASC-nin əməkdaşları ilə birgə görüş keçiriblər.

Aqrar sahədə lizinq xidmətləri kənd təsərrüfatı istehsalı vasitələri olan texnika və texnoloji avadanlıqları, müasir suvarma sistemlərini və damazlıq heyvanları əhatə edir deyən Xəyalə Dadaşova qeyd edib ki, texnika və texnoloji avadanlıqların, o cümlədən müasir suvarma sistemlərinin dəyərinin 40 faizi, damazlıq heyvanların isə 60 faizi dövlət dəstəyi hesabına ödənilir. Qalan vəsait isə bank və istehsalçı tərəfindən müvafiq qaydada qarşılanır. İstehsalçılar uzaq məsafə qət etmədən "Kapital Bank"ın yerli bölmələrinə və Naxçıvan Aqrar Xidmətlər Mərkəzinə müraciət edərək lizinq xidmətlərindən yararlana bilərlər.

Sonra "Kapital Bank" ASC-nin əməkdaşı Fərhad Məmmədquliyev lizinq fəaliyyətinə dair müxtəlif mövzuları əhatə edən təlim keçirib.

## Rusiyadan yeni arxiv sənədləri gətirilib



**AMEA Naxçıvan Bölməsinin növbəti iclasında bölmə əməkdaşları tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev və tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun ötən ay Rusiyanın Sankt-Peterburq şəhərində arxiv materiallarının toplanması üçün apardıqları tədqiqatlarla bağlı hesabatlar dinlənilib.**

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev arxiv sənədlərinin tarixi faktların dəqiqləşdirilməsindəki önəmindən və arxivlərdə işləməyin vacibliyindən danışaraq əldə olunan sənədlərin tədqiqatçılar üçün böyük bir mənbə olacağını və gələcək araşdırmalar üçün geniş imkanlar yaradacağını vurğulayıb.

Bildirilib ki, ezamiyyə dövründə alimlər Sankt-Peterburq Mərkəzi Dövlət Arxivi və Rusiya Dövlət Tarix Arxivinin 42 fondunda olan XIX-XX əsrlər Naxçıvan tarixinə aid 2 min 500 səhifədən artıq material əldə etmiş və Naxçıvana gətirmişlər. Bu sənədlər çar Rusiyası zamanı Naxçıvanın tarixi, mədəniyyəti, sosial-iqtisadi həyatı və əlaqələri ilə bağlıdır.

Qeyd olunub ki, bu sənədlərin tam dəqiq və ciddi araşdırılması üçün zamana və aid mütəxəssislərə ehtiyac vardır. Gətirilən sənədlər həm AMEA Naxçıvan Bölməsi əməkdaşları, həm də Naxçıvan Dövlət Arxiv İdarəsinə elektron formada təqdim ediləcək. Bu, Azərbaycanın istənilən bölgəsindən olan və XIX-XX əsrlər Naxçıvan tarixi ilə bağlı araşdırma aparan tədqiqatçılar üçün yeni imkan yaradacaq.

**Səbuhi HƏSƏNOV**
**XQ**
**Naxçıvan**

**Suallar – cavablar**

# "Kişilər ağıllıdır, yoxsa qadınlar?"

***İnsanlarda belə fərq axtarmağın heç bir əsası yoxdur***

**Sosial şəbəkələrdə xeyli vaxtdır ki, kişi beyninin intellektual fəallığı, əqli inkişaf əmsalına görə qadınlardan yüksək olması barədə müxtəlif fikirlər səsləndirilir. Həmin paylaşımlarda deyilənlər, yazılan rəylər isə ciddi müzakirə və fərqli yanaşmalara səbəb olur. Görəsən, bu baxışların əsası varmı? Bioloji cəhətdən qadın və kişi beynində hansı fərqlər var? Bu suala cavab almaq üçün Azərbaycan Tibb Universiteti farmakologiya kafedrasının müdiri Musa Qəniyevə müraciət etdik. Professor XQ-yə hər iki cinsdən olan insan beyninin bioloji, koqnitiv və hərəki aktivlik nöqteyi-nəzərindən, müqayisəli - elmi təhlilini verdi.**



**– Professor, kişi və qadın beyninin intellektual fəallığında fərqlilik varmı?**

– Qadın və kişi beyini arasında intellektual fərqliliyi, əsasən beyinin çəkisi ilə əlaqələndirirlər. Bu əmsala görə, kişi beyini qadın beyinindən 11–12 faiz ağırdır və daha həcmlidir. Kişilərdə orta beyin çəkisi 1 kiloqram 345 qram, qadınlarda isə 1 kiloqram 222 qramdır. Lakin minimal kritik çəki nisbəti nəzərə alınmazsa (qadınlarda 800 qram, kişilərdə 900 qram), beyin çəkisinin çox olması, yüksək intellekt və zəka sahibi olmağın təsdiqi deyil.

Məsələn, dahi şəxsiyyətlərdən hesab olunan Artur Konan Doylun beyninin çəkisi, hətta minmal kritik göstəricidən də az – 800 qram, Jak Fransuanınkı 1 kiloqram 45 qram, Albert Eynşteyninki isə, 1 kiloqram 230 qram olmuşdur. Statistika beyin çəkisi 2 kiloqram 600 qramdan da artıq olan kəmağıl insanların sayının da çox olduğunu təsdiq edir. Digər tərəfdən, kişi beyini daha böyük və həcmli olsa da, qadın beyninin biofəallığı daha yüksəkdir, həyəcan və psixi təsirlərə qarşı daha dözümlüdür.

**– Demək, kişi, yaxud qadın olmasına baxmayaraq insan beyinlərində fərq yoxdur.**

– Xeyr, bioloji fərq var. Kişi beynində daha çox ağ maddə, qadın beynində isə, boz maddə üstünlük təşkil edir. Limbik sistemlə bağlı qabıqaltı ensefal mərkəzin emosional stimul, yaddaş və orientasiyaya məsul müvafiq strukturlarına münasibətdə də qadın və kişilər arasında fərqlilik mövcuddur.

Beyinin sol payı daha çox qadınlarda, sağ payı isə kişilərdə inkişaf etmişdir. Odur ki, kişilərdə sağ, qadınlarda isə sol beyin yarımkürəsinin fəaliyyət potensialı daha yüksəkdir. Məsələn, danışıq mərkəzinin beyinin sol payında yerləşməsi səbəbindəndir ki, qadınlar ünsiyyətə (söhbət, qeybət və s.) daha çox meyilli olurlar. Və ya, kollektiv toplanış və ünsiyyət zamanı kişilərlə müqayisədə qadınlarda daha yüksək emosional intellekt, şifahi duyğuların mürəkkəb leksik təfəkkürlə ifadəsi, digərinin emosional vəziyyətinin daha yaxşı başa düşülməsi də bununla bağlıdır.

Boz qabar sahəsində gender fərqliliyinə görə kişilərin beyinində yarımkürədaxili, qadınlarda isə yarımkürəarası sinaptik əlaqələr daha üstündür. Kişi və qadın beyini arasında bioloji, koqnitiv və hərəki fəallıq baxımından fərqlilik təkcə söylədiklərimlə məhdudlaşmır...

**– Oxucular üçün maraqlı olardı: başqa fərqliliklər hansılardır?**

– Bunlar əqli inkişaf əmsalına əsaslı surətdə təsir göstərməyən, cinsi amillə bağlı fərqliliklərdir. Əqli inkişafın göstəricisi olan bu əmsala görə qadın və kişi beyini arasında mütləq fərqlilik yoxdur. Bu paradoksal bir hal olsa da, reallıqdır. Əsasında isə o durur ki, beyin çox mürəkkəb, lakin öz strukturunu dəyişə bilən plastik orqandır. Konkret şərait, mühit və inkişaf dinamizmindən asılı olaraq, yeni sinaptik əlaqələrin yaranması hesabına, fərd olaraq bir insanın beyininin potensial bioloji fəallığı digərindən artıq ola bilər. Yəni söylədiyim şərtlər daxilində qadın və kişi beyininin inkişaf əmsalı bir - birini dəfələrlə üstələyə bilər.

Bu neyrobioloji inkişafın mütləq qanunudur. Odur ki, bu göstərici kişinin qadından daha ağıllı olması düşüncəsinə səbəb olmamalıdır. Beyinin çəki və həcm ölçüsünün faiz nisbətində fərqliliyə gəlincə, burada məlum ölçülərə cinsiyyət hormonu (testesteron, estrogen) və neyromediator sistemin təsiri əsas kimi götürülür. Maraqlıdır ki, qadınlara təbiətin bəxş etdiyi qoruyucu və gözəllik hormonu olan estrogenlər, həm də beyin qan dövranını gücləndirməklə, qadınlarda yaddaş itkisi və demensiyanın inkişafının qarşısını alır.

Digər tərəfdən, beyin çəkisində qeyd olunan gender fərqliliyi mütləq göstəricilərə əsaslanır. Yəni bu halda ümumi bədən çəkisi nəzərə alınmır. Çünki kişilərin çəki və orta boy nisbəti qadınlardan artıqdır. Əgər bu göstəricilər eyni rəqəm daxilində götürülərsə, kişi və qadın beyininin çəkisi böyük ehtimalla eynidir.

**– Bununla bağlı sosial şəbəkələrdə müzakirə açan istifadəçilərə tövsiyəniz.**

– Bir psixofarmakoloq həkim olaraq fərdi müşahidə, gəldiyim qənaət və apardığım elmi araşdırmaların müqayisəli təhlili, kişilərin qadınlardan daha ağıllı olması fikrinin tamamilə yanlış, əsassız, əslində isə, patoloji yanaşma olduğunu təsdiq edir. Sosial şəbəkələrdə söylənənlər heç bir elmi əsasa istinad etmir. Allah tərəfindən yaradılanların möcüzəsi olan insanlar arasında idrak və təfəkkürə görə gender fərqliliyi yoxdur. Onu da qeyd etməyi özümə borc bilirəm ki, fikirlərim və apardığım bu təhlil kimlərisə qane etməyə bilər. Lakin mən, elmi həqiqətə inanır və ona əsaslanıram.

**– Maraqlı və inandırıcı cavablara görə təşəkkür edirik.**

**Söhbəti hazırladı:**
**Z.BƏŞİRQIZI**
**XQ**

# Qərb bölgəsində zəlzələ

**Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, iyulun 17-də yerli vaxtla saat 06:09 dəqiqədə Zaqatala seysmik stansiyasından 61 kilometr cənub-qərbdə, Gürcüstan ərazisində 5 kilometr dərinlikdə 4.8 maqnitudalı zəlzələ qeydə alınıb.**



FHN-in mətbuat xidmətindən bildirilib ki, zəlzələ episentrdə 4.8 bal, Ağstafa, Tovuz, Balakən, Zaqatala, Gəncə, Gədəbəy və digər rayonlarda 4-3 bala qədər hiss olunub.

Zəlzələ nəticəsində hər hansı dağıntı və ya insan xəsarəti barədə FHN-nə məlumat daxil olmayıb.

**XQ**

Sənətin əbədiyyəti

# 14 yaşında könülləri fəth etmiş xanəndə

## Cabbar Qaryağdıoğlunun yetirməsi Zülfüqar Hacıbəylinin xeyir-duası ilə məşhurlaşmışdı

**Böyük Üzeyir Hacıbəylinin qardaşı və silahdaşı Zülfüqar bəy gənc istedadlar sorağıyla Şuşada səfərdə idi. Bəstəkar bir axşam uşaqlıq xatirələrinin izi ilə Cıdır düzünə qalxıb qarşı yarğanın o tayının bənzərsiz mənzərəsini seyr edirdi. Dağ çayı tək qəfil kükrəyən xoş bir avaz xəyala dalmış Zülfüqar bəyi yerindən tərpətdi...**



"Üçmıx" zirvəsindən çağlayıb, göm-göy Çaxmaq meşəsinin üstündən qanad çalaraq Daşaltı dərəsi boyunca yayılan və "Qaya başı"nın "Topxana"ya baxan sıldırımlarında cingiltili əks-səda verən bu əfsunlu səsi, axtardığını tapmış kimi, axıracan dinləyən bəstəkarın sevinci birə-beş artdı. Sənət xiridarı oxuyanın kim olduğunu öyrənib-bilmək üçün bu avazın yayıldığı səmtə – "Ağzıyastı kaha"nın dikdirində görünən qaraltıya doğru getməyə başladı. Uçurumun başında yastı bir daşın üstündə oturub quzu otaran 10–12 yaşlarında bir uşaq idi. Yaxınlaşıb son dərəcə nəvazişlə soruşdu:

– Oxuyan sən idinmi, oğlum?!

Oğlan cəld yerindən qalxıb eyni nəvazişlə cavab verdi:

– Bəli, əmi, mən idim, nə olub?!

Qarşısındakı uşağın hazırcavablığı və nəzakəti Zülfüqar bəyə çox xoş gəldi və onun kimlərdən olduğunu soruşdu:

– Saatlı Müseyibin oğluyam, papaqçı Müseyibin. Adım da Əlipaşadır!

Zülfüqar bəy də özünü nişan verdi:

– Çox gözəl, oğlum! Atan mənim köhnə tanışımdır ki! Bir-birimizi yaxşı tanıyırıq. Hər dəfə mən Şuşaya gələndə onunla görüşməmiş getmirəm. Axşam evə gedəndə atana de ki, Zülfüqar əmi şəhərdədir. Özü biləcək hansı Zülfüqar.

Səhərisi köhnə dostlar ikiqat mehribanlıqla görüşdülər. Müseyib Məmmədbağır oğlu ilə Zülfüqar bəy Hacıbəyov uşaqlıq dostu idilər. Qonşu məhəllələrdə yaşasalar da, bir yerdə böyüyüb ərsəyə çatmışdılar. Zülfüqar bəy çoxdan Bakıda yaşayırdı, Müseyib isə Şuşada sadə bir peşəylə - dərziliklə məşğul olurdu. Yaxşı tar çalmağı var idi, mütaliəni də çox sevirdi. Böyük və zəngin kitabxanasındakı kitabların bəziləri AMEA Əlyazmalar İnstitutunda saxlanılır.

Şuşaya gələn bütün ziyalılar, ilk növbədə, onun qapısını döyərdi. Elə bugünkü qonaqları da Zülfüqar bəylə yanaşı, Şuşada yaradıcılıq ezamiyyətində olan görkəmli ziyalılar – folklorşünas Salman Mümtaz, ədəbiyyatşünas Feyzulla Qasımzadə, tarixçi İsaq Məmmədov idi. Bir azdan Tiflis səfərindən yenicə qayıdan xanəndə Cabbar Qaryağdıoğlu və şəhər ağsaqqallarından Məşədi Abış bəy Novruzbəyov da gəlib çıxdılar.

Lap kiçik yaşlarından Əlipaşanın qeyri-adi səsi olduğunu görən atası oğluna yaxın qohumu, xanəndə Cabbar Qaryağdıoğlundan musiqi dərsi keçməyi xahiş eləmişdi. Böyük ustad da az bir vaxtda musiqini dinləmək, qavramaq qabiliyyəti çox güclü olan Əlipaşaya muğamın yolunu, texnikasını, oxumaq qaydalarını, ifa tərzini öyrətmişdi. Allah-taala da bu uşağa elə bir istedad vermişdi ki, o, diqqətlə qulaq asdığı hər hansı bir mahnını, yaxud muğam parçasını dərhal mənimsəyir, heç kəsi yamsılamırdı. El havalarını, muğamları yeni xallarla, yeni nəfəslərlə səsləndirirdi.

Əlipaşa ilk sənət müəllimindən həm də səylə şeir-qəzəl öyrənir, mahnı və muğamları yaradıcılıq süzgəcindən keçirib, sonra oxuyurdu. Gənc xanəndə saysız-hesabsız qədim el mahnılarını, təsnifləri, zəngin və mürəkkəb muğamları, xüsusilə, "Çahargah"ı və "Mahur"u şövqlə oxuyurdu. Əlavə olaraq, İslam Abdullayevin, Seyid Şuşinskinin, eləcə də ustadının qrammofon vallarını vaxtaşırı oxudaraq saatlarla qulaq asması onun bir xanəndə kimi yetişməsində çox mühüm rol oynayırdı.

Qonaqların salam-kəlamından sonra məclis başlandı. Ev sahibinin "xoş gəldisi"ndən sonra şair təbi olanlar təzə şerlərini oxudular. Cabbar Qaryağdıoğlu şəyirdini oxumağa həvəsləndirmək məqsədilə bir-iki ağız deyəndən sonra Zülfüqar bəy tarı götürdü, Əlipaşa qavalı əlinə aldı, "Segah" üstündə el havaları oxumağa başladı. Hamının diqqəti Əlipaşaya yönəldi. Balaca xanəndənin bülbül kimi cəh-cəhi muğamın həzin tərənələri ilə qonaqların ürəklərini riqqətə gətirdi. Əlipaşa muğama ayaq verib, "Qarabağ şikəstəsi"nə keçmək istərkən ustadı əlini qaldırıb, ondan oxumağı dayandırmağı işarə elədi. Çünki artıq yarım saat fasiləsiz oxuyan balaca xanəndəni yormaq, gücə salmaq olmazdı.

Məclis başqa bir səmtə çevrildi, Zülfüqar bəy məqsədini açıb dedi. Əlipaşanı özü ilə Bakıya aparmaq istəyini bildirdi. Müseyib Zülfüqar bəyin təkidli xahişini, oğlunun razılığını və qonaqların da bu fikri alqışladıqlarını görüb, Əlipaşanın Bakıya getməsinə razılıq verdi, amma bir şərtlə ki, özü də onunla getsin.

1932-ci ilin yayı idi. Balaca Əlipaşa Zülfüqar bəy Hacıbəylinin təşəbbüsü ilə Bakıya çağırıldı və həmin vaxtdan da o, əsl, peşəkar sənət aləminə qədəm qoydu və bu sahədə sərrast qədəmlərini atmağa başladı. Balaca xanəndə görkəmli tarzən Qurban Pirimovun nəzarəti altında məşqlərə başladı. Bakıda ilk konsert uğurlu oldu. Şəhərin mərkəzi küçələrinin görümlü yerlərində vurulmuş cəlbedici afişa ötüb-keçənləri ayaq saxlamağa məcbur edirdi: "Şuşadan dəvət olunmuş 12 yaşlı xanəndə Əlipaşanın konserti".

Gözəl yaz axşamlarından birində balaca xanəndənin ilk konsertinə baxmağa tələsənlər dəstə-dəstə Müdafiə Evinə (indiki M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına - V.Q.) sarı gəlirdilər. Bakının bütün mədəniyyət və incəsənət xadimləri - görkəmli müğənnilər, bəstəkarlar, şairlər, yazıçı və sairlər sorağı sürətlə Bakıya yayılmış bu istedadlı uşağın konsertinə yığışmışdı. Salonda bir dənə də olsun, boş yer yox idi.

Balaca Əlipaşa peşəkar xanəndələr kimi sərbəstcə səhnəyə çıxdı. Sonra Qurban Pirimovun üçlüyü göründü. Uşaq xanəndə incə və məlahətli səsi ilə ilk ifasını dinləyicilərinə təqdim elədi. Elə ilk anlardan da ifaçılığı ilə elə bir məharət göstərdi ki... Bulaq təki saf, yumşaq, şirin səsi, ifasının sadəliyi, son dərəcə sərbəst ifa tərzi, texniki ustalığı bir yana, vurduğu sərrast zəngulələr, cəsarətli gəzişmələr, geniş diapozon hamını heyrətdə qoydu, qəlblərdə dərin iz buraxdı.

Qısa fasilədən sonra Əlipaşa muğama keçdi, zil pərdədə, kövrək və lirik "Yetim Segah"a başladı. Onun zəngulələrlə dolu cingiltili səsi bütün salona yayıldı. Əlipaşa muğamı da, təsnifləri də səsinin diapozonuna görə ifa elədi, qəzəlləri olduqca aydın və rəvan oxudu, ölçüdən zərrə qədər kənara çıxmadı, uzun-uzadı zəngulələrlə tamaşaçıları yormadı. Muğamın həzin melodiyası doğma ana laylası kimi dinləyicilərin hisslərini kükrədirdi. Xanəndə hərdən bir özünə qapanıb, gözlərini yumur, elə bil "Yetim Segah"ın qəmli rəvayətini salondakılara nağıl edirdi…

Konsert başa çatanda Əlipaşanı uzun-uzadı alqışladılar. O, salondakılara dönə-dönə baş əydi, sürəkli alqışlar altında səhnəni tərk elədi. Çox böyük uğurla keçən birinci konsertdən sonra respublika qəzetləri öz səhifələrində bu şuşalı xanəndəyə səxavətlə yer ayırır, onun parlaq istedadı barədə rəylər, maraqlı yazılar dərc eləyirdi. "Kommunist" (indiki "Xalq qəzeti") qəzetinin 27 sentyabr 1933-cü il tarixli sayında çap olunmuş "Qayət məlahətli səsə malik Əlipaşanın konserti" adlı məqalədə deyilirdi: "14 yaşlı Əlipaşa qayət, məlahətli və gözəl səsə malikdir. Birinci konsertini Şuşa və Qaryagin şəhərlərində vermiş və böyük müvəffəqiyyət qazanmışdır. Əlipaşa Azərbaycan Radio İdarəsi tərəfindən Bakıya dəvət edilmişdir… Əlipaşa bir-birinin ardınca nə az, nə çox, düz 27 konsert verdi".

Bəzən gənc xanəndə Xan Şuşinski ilə birlikdə çıxış edirdi. Əlipaşa Daşdəmirovun çıxışları barədə şəhərin görkəmli yerlərində afişalar vurulur, qəzetlərdə elanlar dərc edilirdi. Hər dəfə də onun konsertləri anşlaqla keçirdi. Gənc xanəndənin uğurlu çıxışlarından sonra Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə ona xüsusi təqaüd kəsildi. Lakin səsini qorumaq, ifaçılıq məharətini saxlamaq üçün keçid dövrünə qədər müvəqqəti olaraq oxumamaq tövsiyə edildi və Şuşa Dövlət Musiqi Texnikumunun tar sinfində təhsil almağa göndərildi.

1934-cü ilin baharında Zaqafqaziya xalqlarının I musiqi olimpiadasında iştirak etmək üçün Əlipaşa Daşdəmirov yenidən Bakıya dəvət olundu. İstedadları seçmək üçün mayın 15-dən 20-dək Üzeyir Hacıbəyovun rəhbərliyi ilə ümumrespublika baxışı keçirilirdi. Baxış-müsabiqədə Əlipaşa yenə böyük uğur qazanaraq Fəxri fərmana layiq görüldü.

1938-ci ildə 17 yaşlı Əlipaşa Daşdəmirov Şuşa Musiqi Texnikumunu bitirdi və uşaq musiqi məktəbi təşkil etmək üçün o, Nuxa şəhərinə göndərildi. Burada həm direktor vəzifəsini daşıdı, həm də tar müəllimi kimi fəaliyyət göstərdi. Məktəbin birinci buraxılışından sonra Əlipaşa səfərbərliyə alınıb, müharibəyə yollandı, lakin respublikada pedaqoji kadrlara böyük ehtiyac olduğuna görə 1942-ci ildə geri çağırılıb, Şura orta musiqi məktəbinə direktor göndərildi. Çox çəkmədən xüsusi istedadını və təşkilatçılıq qabiliyyətini nəzərə alaraq Azərbaycanın müxtəlif rayonlarında yeddiillik musiqi məktəblərinin və texnikumlarının təşkili işi ona həvalə olundu.

1945-ci ildə Əlipaşa Daşdəmirov Ağdamda ibtidai musiqi məktəbi açdı və musiqi texnikumunun (1948–1963) bünövrəsini qoydu. Az müddət içərisində burda vokal, fortepiano, xor dirijorluğu, nəfəsli çalğı alətləri, tar və xanəndəlik şöbələri açdı, zəngin kitabxana yaratdı, gənc musiqiçi kadrlarının yetişdirilməsində xüsusi səy göstərdi. Onun işgüzar əməyi sayəsində məktəb respublikada ən nümunəvi musiqi tədrisi müəssisələrindən birinə çevrildi.

Əlipaşa müəllim 1963-cü ildə Bakıya göndərildi və A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin Sumqayıt filialını yaratmaq yenə də bu təşkilatçı pedaqoqa həvalə olundu, onun ilk direktoru (1965–1971) oldu və sonra müstəqil məktəbə çevrilməsində səyini və bacarığını əsirgəmədi. Yenidən Bakıya qayıdaraq 8 nömrəli internat məktəbdə tar müəllimi və musiqi işləri üzrə direktor müavini (1977–1983) vəzifələrində çalışdı. Həmin dövrdə o, ali təhsil almağı da unutmadı. Əvvəlcə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Texnikumunu tar sinfi üzrə bitirdi, sonra isə konservatoriyada musiqi təhsili aldı.

Yarım əsrdən artıq muğam və mahnı ifaçılığı meydanında öz havalı köhlənini səyirdən ustad sənətkar ömrünün qürub çağlarını qardaş Türkiyədə keçirdi və 2011-ci il fevralın 15-də 90 yaşında burada haqq dünyasına qovuşdu. İndi onun da ruhu xoşbəxtliyə çatıb, Pənahabad - Şuşa qalasında qalan dünyası ilə qovuşub.

***Vasif QULİYEV,***
***"Şuşa" qəzetinin baş redaktoru***

# Şuşada növbəti Vaqif Poeziya Günləri

**Dünən Şuşada Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ənənəvi Vaqif Poeziya Günlərinə start verilib. Sənət bayramında rəsmilər, ədəbiyyat, mədəniyyət və elm xadimləri, habelə Azərbaycan Yazıçılar Birliyinin 90 illik yubileyi münasibətilə ölkəmizdə səfərdə olan türk dövlətləri şair və yazıçıları iştirak edirlər.**




Bu gün Vaqif Poeziya Günləri çərçivəsində Şuşanın müxtəlif tarixi yerlərində və təbiət abidələrində – Heydər Əliyev Fondunun bərpa etdiyi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində, Cıdır düzündə, eləcə də Natəvanın evi, Şuşa Şəhər İcra Hakimiyyətinin qarşısı və Şuşa Otel-Konqres Mərkəzində müxtəlif şənlik və mədəni aksiyalar keçiriləcək.

Xatırladaq ki, ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada böyük şair və dövlət xadimi Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya evinin təntənəli açılışı olub. Həmin gün ulu öndər Heydər Əliyev ədəbiyyat xadimlərimizin təşəbbüsünü dəstəkləyərək Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib. Söz-sənət bayramı ilk dəfə 1982-ci ilin iyulunda təşkil edilib.

**XQ**

# COP29-un turizm üfüqləri

**Noyabrın 11-dən 24-dək Bakıda gerçəkləşəcək dünya miqyaslı tədbirlərdən biri olan COP29 beynəlxalq ictimaiyyətin əsas diqqətini Azərbaycana yönəldəcək. Ətraf mühitin qorunması, yaşıl enerjiyə keçidin sürətləndirilməsi və ekoloji turizmə üstünlük verilməsi mövzuları da sessiyada diqqətdə saxlanılacaq. Bu beynəlxalq tədbir mədəni və tarixi irsimizi, ekoturizm, aqroturizm və dayanıqlı turizm imkanlarımızı dünyaya tanıtmaq baxımından da faydalı olacaq.**



Bəs COP29 turizm sektorunun üzərinə nə kimi öhdəliklər qoyur və mütəxəssislər bu tədbirin Azərbaycan turizminə müsbət təsirini necə izah edirlər? Artıq bir çox turizm agentlikləri bu tədbirdə iştirak etmək üçün Bakıya gələcək xarici qonaqların otellərə yerləşdirilməsi, istirahətlərinin təşkili, paytaxtımızla tanışlığı kimi məsələləri indidən diqqətdə saxlamağa başlayıblar. Qonaqların rahat şəkildə qeydiyyatdan keçmələri və yerləşmələri üçün vahid onlayn rezervasiya platforması da hazırlanıb.

**Turizm üzrə ekspert Ceyhun Aşurov bildirdi ki, COP29-la bağlı texniki-təşkilati hazırlıq işləri uğurla davam etdirilir:**



– Bakının evsahibliyi edəcəyi bu mötəbər tədbirə qatılmaq üçün 50-dən çox dövlət başçısının, 70–80 min xarici ölkə vətəndaşının Azərbaycana gəlişi gözlənilir. Belə möhtəşəm tədbirlər, şübhəsiz, turizmin inkişafına də təsirsiz ötüşmür. Bu qlobal miqyaslı tədbirin Azərbaycana salınması həm də dövlətimizin iqtisadi-siyasi gücünü və təhlükəsizlik səviyyəsini göstərir. Təsadüfi deyil ki, ölkədə hazırlıq işləri ən yüksək sürətdə həyata keçirilir. Tədbirdən sonra geri qayıdan insanlar Azərbaycan tarixinin, mədəniyyətinin, mətbəxtinin və ölkəmizin görməli yerlərinin yaratdığı təəssüratı öz ölkələrində paylaşacaqlar. Bu, həm də qonaqların yenidən geridönüşünə səbəb olacaq. Turizm Azərbaycanda prioritet sahədir. COP29 da turist axını üçün əlverişli platforma rolunu oynayacaq.

**Turizm üzrə digər ekspert Ruslan Quliyev də beynəlxalq miqyaslı tədbirlərin Azərbaycanda keçirilməsinin əhəmiyyətini qeyd edərək dedi ki, COP29 həm ölkənin, həm də ölkə turizminin alt sahələrinin tanıdılması baxımından böyük önəm daşıyır. Azərbaycanın bu sahədə müəyyən təcrübəsinin olduğunu deyən ekspert daha sonra dedi:**



– Bu tədbir, hər şeydən öncə, fürsət yaradır ki, Şərqi Zəngəzur və Qarabağı vaxtından əvvəl yeni turizm destinasiyası kimi tanıdaq. Bu iki ərazinin yaşıl zona elan olunması oranın turizm porensialını daha da artırır. Ölkəmizin bu gün il ərzində 5 milyondan artıq turist qəbul eləmək imkanları var. Uzun illərdir, ekoloji problemlər beynəlxalq gündəmdə əsas məsələlərdən birinə çevrilib. Artıq dünyada enerji keçidi və iqlim dəyişikliyi mövzusu xeyli aktuallaşıb. Bu isə, turizm potensialı olan ölkələrin ekoloji turizmi irəlilətməsini vacib edir. Əlbəttə, COP29 konfransı Azərbaycanın dünyada nüfuzunun daha da möhkəmləndirilməsinə töhfə verəcək. Düşünürəm ki, fürsətdən yararlana bilsək, Azərbaycan 2026-cı ilədək dünyanın 20 ən yaxşı turizm ölkəsindən biri ola bilər.

***Ceyhun ALIŞLI***

# Buzlaqların əriməsi günləri uzadır

**İqlim dəyişikliyi səbəbindən Yer kürəsinin fırlanması yavaşıyıb. Sürix Ali Texniki məktəbinin alimləri bu qənaətə gəliblər. Tədqiqatçılar Yerin dəyişmə sürətini və qütb sürüşməsini hesablayan model yaradıblar. Müəyyən edilib ki, qütb buzlarının kütləvi şəkildə əriməsi planetin formasını dəyişir.**



İsveçrə alimlərinin fikrincə, dəyişmə Qrenlandiya və Antarktidanın buz təbəqələrinin tədricən əriməsi ilə bağlıdır. Bu, planetdə suyun yenidən bölüşdürülməsinə gətirib çıxarır. Ekvator zonasında su daha çoxdur. Bu, Yeri daha uzunsov edir və planetin fırlanması yavaşıyır. Bu səbəbdən gündüz saatları uzanır: 2000-ci ildən bəri Yer kürəsində günlər 1,33 millisaniyə artıb.

Mütəxəssislər hesab edirlər ki, bu cür müvəqqəti dəyişikliklər internet trafikini, GPS naviqasiyasını pozmağa kifayət edir. Bundan başqa, dəqiq vaxtdan asılı olan maliyyə əməliyyatlarında səhvlərə səbəb olur. Sürixdən professor Benedikt Soya hesab edir ki, millisaniyələr sayəsində insanların Yerə nə qədər təsir etdiyini başa düşmək olar: "Biz görürük ki, insanlar Yer sisteminə təkcə lokal deyil, həm də fundamental təsir edir. Bu təsir Yerin temperaturunu artırmaqla yanaşı, həm də əsaslı şəkildə kosmosda fırlanmasını və hərəkətini dəyişir. Karbon qazı emissiyalarına görə biz bunu cəmi 100–200 il ərzində etdik. Halbuki keçmişdə bunun üçün milyardlarla il lazım idi.

***PÜNHAN***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# ABŞ-də prezident seçkisi: namizədlərin fərqli şansları

**Amerika xalqı Ukraynanı qətiyyətlə dəstəkləyir. Dövlət Departamentinin sözçüsü Metyu Miller vitse-prezidentliyə namizəd Ceyms Devid Vensin mövqeyi ilə bağlı suala birbaşa cavab verməkdən yayınaraq belə deyib. Xatırladaq ki, Ohayo senatoru Kiyevə əlavə dəstəyin zəruriliyini dəfələrlə şübhə altına alıb. Ancaq siyasi müşahidəçilərin sözlərinə görə, Vaşinqton real hərəkətləri səs-küylü seçki bəyanatlarından ayırmağa meyillidir. 14 iyul sui-qəsd hadisəsinin də seçkilərin taleyinə həlledici təsir göstərəcəyi ilə bağlı fikirlər müxtəlifdir. Ona görə də belə fikirlər səslənilir ki, respublikaçılar üçün qələbəni qeyd etmək hələ tezdir.**



Qərb mətbuatı yazır ki, dünyanın siyasi səhnəsində Ceyms Devid Vens adlı yeni parlaq sima peyda olub. O, ABŞ-ın Respublikaçılar Partiyasından vitse-prezidentliyə namizəd irəli sürülüb. Ohayodan olan 39 yaşlı senator ağır taleyi olan, həyatın çətinliklərinə və müsibətlərinə baxmayaraq, ABŞ-nin siyasi olimpinə yüksəlməyi bacarmış şəxs kimi xarakterizə olunur.

Amma maraqlıdır ki, cənab Vens heç də həmişə Donald Trampı dəstəkləməyib və hətta sabiq prezident haqqında təhqiramiz ifadələrə yol verib. "Mən həmişə Trampın əleyhinə olmuşam. Mən onu heç vaxt bəyənməmişəm". Bunlar 2016-cı ildə Donald Tramp haqqında dediyi ifadələrdən biridir, etika xatirinə digər sözlərini yazmırıq. Bu ifadələrin qeyd olunduğu "Kənd elegiyası" adlı kitabının işıq üzü görməsindən sonra cənab Vens qısa müddətdə məşhurlaşıb.

Lakin bir neçə il ərzində senator Vens cənab Trampın ən etibarlı müttəfiqlərindən biri kimi özünü göstərməyə başlayıb. İndi Ohayo senatoru sabiq prezidentin yaxın silahdaşı sayılır və 2028-ci ildə Respublikaçılar Partiyasından prezidentliyə əsas namizədlərdən biri kimi göstərilir. Buna onun respublikaçı senator kimi nüfuzunun və Amerikanın orta qərbindəki köklərinin kömək edəcəyi iddia olunur.

Doğrudur, vitse-prezident dövlətin ikinci şəxsi olsa da, dünyanın taleyini təyin edəcək qədər təsirli post deyil. Bununla belə, cənab Vensin realpolitikanın klassik nümayəndəsi olduğu bildirilir. Diqqət yetirin: perspektivli gənc əvvəlcə Trampı son sözlərlə danlayır, onu "Hitler" adlandırır, amma sonra gözlənilmədən sabiq prezidentlə dostluq əlaqələri qurmağa can atır. Bəs buna necə nail oldu? Çox sadə şəkildə: cənab Vens ictimaiyyət qarşısında üzr istəyərək etiraf etdi ki, o vaxt belə düşünürdü, indi isə mövqeyini dəyişib, səhv etdiyini anlayıb.

Bundan əlavə, Ohayodan olan senator ardıcıl olaraq Amerikanın Ukraynaya hərbi yardımına qarşı çıxıb. Doğrudur, cənab Vens Rusiyanın hərbi əməliyyatını da dəstəkləmir, lakin Kiyevin qələbəsinin reallığına da inanmır. Bununla belə, o, İsrailə və Tayvana kömək etməyə tam hazır olduğunu bildirir. Amma sabah vəziyyətin dəyişməyəcəyinə heç kim zəmanət verə bilməz. Siyasi konyuktur dəyişərsə, mövqeyi də dəyişə bilər.

Maraqlı faktlardan biri də budur ki, cənab Vens Rusiya sanksiyaları altındadır və Moskvaya girişi qadağandır. Rusiya Xarici İşlər Nazirliyinin son açıqlamasına görə, heç kim onu qara siyahıdan çıxarmaq fikrində deyil. Buna görə də Rusiyada Ohayo senatorunun Ukrayna münaqişəsi barədə dediklərini müsbət aktiv kimi qiymətləndirməməyə daha çox meyllidirlər.

Əlbəttə, ABŞ-də seçici sözlərə görə yox, əməllərə görə mühakimə edir, namizədini dəstəkləyir. Ən azından məsuliyyətli seçici belə addım atır. Təbii, sui-qəsd hadisəsi cənab Trampın seçkilərdə qələbə qazanmaq şanslarını artırır. Ancaq bu da bir reallıqdır ki, seçkilərə hələ 3 aydan çox vaxt qalır və indiki administrasiya prezident Co Baydenin mövqelərinin yaxşılaşdırılması üçün müəyyən nəticələr əldə edə bilər. İndi hər iki prezidentliyə namizədin, təxminən, eyni səviyyədə dəstəyi olduğunu nəzərə alsaq onu deyə bilərik ki, seçkilərin nəticələri barədə danışmaq çox tezdir.

***S.ELAY***
***XQ***

Paris Olimpiadasına 8 gün qalıb

# Cüdoçularımız, sizi Olimpiya zirvəsində alqışlamağa hazırıq!

**Paris Olimpiadasından bizi 8 gün gün ayırır. Dördilliyin ən mötəbər yarışına olimpiyaçılarımız maksimum gücləri ilə hazırlaşırlar. Medal ümidlərimizdən olan cüdoçularımız oyunlara 9 idmançı ilə yollanacaqlar. Kişilər maksimum sayda, qadınlar isə 2 idmançı ilə təmsil olunacaq.**




Cüdo müstəqil Azərbaycanda populyar idman növlərindən biridir. Azərbaycan bayrağı altında bu idman növü üzrə yeganə qızıl medal "Pekin-2008"də kişilərin yarışında əldə edilib. Hazırda isə cüdo idmanı ölkəmizdə parlaq dövrünü yaşayır. Kişilərdən ibarət komandamızın heyətində dünya Olimpiya reytinqinin lideri, Dünya çempionu, Avropa çempionatının 4 qat qalibi Hidayət Heydərov (73 kq) kimi güclü idmançı mübarizə aparacaq. Dünya və Avropa çempionu Zelim Kotsoyev (100 kq) öz çəkisində Olimpiya reytinqinin 1-cisidir. Komandamızın digər istedadlı tatami ustalarından – Balabəy Ağayev (60 kq), Yaşar Nəcəfov (66 kq), Zelim Tçkayev (81 kq), Elcan Hacıyev (90 kq) və Uşangi Kokauri (+100 kq) də ötən dövr ərzində mühüm nailiyyətlər əldə edərək, dünya reytinqində ön sıralarda yer alıblar. Qadınların yarışında Leyla Əliyeva (48 kq) və Gültac Məmmədəliyeva (52 kq) qüvvələrini sınayacaqlar.

**Elə bugünlərdə Azərbaycan Cüdo Federasiyasının son 2 illik fəaliyyəti ilə bağlı hesabatda da olimpiyaçılarımızın potensialından, ötən dövrdə əldə etdikləri nailiyyətlərdən fərəhlə söhbət açıldı, uğurlarından iftixarla danışıldı. Federasiyanın icraçı vitse-prezidenti Rəşad Rəsullu komandanın hazırlığa ötən ilin dünya çempionatından sonra başladığını bildirdi:**

– Əvvəlcə əsas komandamızı müəyyən etdik. Kişilərimizdən 22-23-ü, qadın tatami ustalarımızdan isə 7-nin Olimpiya lisenziyası qazanmaq şansı var idi. Kişilərdə 10 idmançımız vəsiqə əldə etdi. Bəzi çəki dərəcələrində bir neçə idmançımız lisenziya xalını topladı. Bəzi idmançılarımız çox az xalla lisenziyadan kənarda qaldı. Məsələn, Kamran Süleymanov (66 kq), Rəşid Məmmədəliyev (73 kq), Vüqar Talıbov (90 kq), Camal Qamzatxanovun (+100 kq) təxminən, 100-200 xalı çatmadı ki, vəsiqə qazansınlar.

Lisenziya baxımından kişilərdə qarşıya qoyulan hədəflərə çatmışıq. Qadınlarda azı 2 lisenziya hədəfləmişdik. Ona nail olduq. Amma daha bir çəkidə – 57 kiloqram üzrə müxtəlif səbəblərdən vəsiqə əldə edə bilmədik. Acelya Topraq komandaya bir qədər gec – 2023-cü ilin dekabrında qoşuldu. Vaxt az idi. İnanırıq ki, növbəti Olimpiya tsiklində özünü göstərəcək.

Ümumilikdə, komandamız 11 beynəlxalq, 6 yerli təlim-məşq toplanışında və çoxsaylı yarışlarda iştirak edib. Komandanın hazırlığı üçün Gənclər və İdman Nazirliyi tərəfindən də hər bir şərait yaradılıb. Cüdoçularımızın hər birindən olimpiadada medallar gözləyirik.

Federasiyada görülən işlər cüdoçuların qısamüddətli qələbəsinə deyil, uzunmüddətli nailiyyətlərinə hesablanıb. 2024–2028-ci illər üçün açıqlanan hədəflərdə Azərbaycanın dünyanın 1 nömrəli cüdo ölkəsinə ölkəsinə çevirmək əsas kimi götürülüb.

**Rəşad Rəsullu kişi cüdoçularımızın güclü heyətlə Parisə yollanacağını dedi:**

– Cüdoçuların nəticələrinə görə, kişi komandamız hazırda dünyada ilk 10-luqdadır. Təəssüf ki, qadın cüdosu o qədər də inkişaf etməyib. Hazırda əsas 3 strateji istiqamət üzrə işləyirik. İlk növbədə kütləviliyin artırılması üçün tədbirlər görürük. Hazırda 18 mindən çox idmançı cüdonun sirlərinə yiyələnir. Gələcəkdə onların sayını 2 dəfə artırmağı, 20 faizi qadın olmaqla, 36 minə çatdırmağı planlaşdırırıq. Qadın cüdoçuların sayını 7 minə qaldırmayana qədər, elit idmanda qadınlar arasında nəticə qazanacaq qızlar yetişdirmək çətin olacaq. Əsas komandadan əlavə, hər çəkidə ehtiyatda 5-6 cüdoçu olmalıdır ki, seçim edə bilək. İstedadların inkişaf yolunun təkmilləşdirilməsi də əsas istiqamətlərdəndir. Yeniyetmə və gənclərin nailiyyətlərini daha da təkmilləşdirib elit idmançılara qoşulması vacibdir.

Daha bir amil məşqçilərin inkişafıdır. İlk dəfə Beynəlxalq Cüdo Federasiyasının seminarını keçirəndə müqavimətlə üzləşdik. 2 ildən sonra artıq hər bir məşqçi o seminarda iştirak etmək istəyir. Hazırda ildə 12 seminar keçirməyi hədəfləyirik ki, hər məşqçinin onların heç olmasa 6-da iştirakı vacibdir.

Məşqçilərin məcburi sertifikatlaşdırılması da planlarımızın bir hissəsidir. Tanımadığımız məşqçiləri yarışa buraxmayacağıq. İdman təşkilatçılarının qarşısında da bu tələb qoyulacaq. Əks-təqdirdə, həmin təşkilatlar yarışlarımızda iştirak edə bilməyəcəklər. Azərbaycan İdman Akademiyasında cüdo kafedrasını yaratmaq da nəzərdə tutulur. Artıq 2025-ci ilin sentyabrında belə bir kafedranın yaradılması planlaşdırılıb. Federasiyanın əsas hədəfləri, bütövlükdə, cüdoçularımızın olimpiadalarda uğurla iştirakına yönəlib.

**Qurum rəsmisi növbəti olimpiadalarda daha böyük qələbələr üçün görülən işlərin davam etdiyini dedi:**

– Gələcək hədəflər sırasında kişilərin 2028-ci ildə ümumi medal sıralamasında 2-ci yeri götürməsi, qadınlarda isə azı 1 medal planlaşdırılıb. 2032-ci ildə isə qarışıq komanda yarışında mükafat edal qazanmağı hədəfləyirik. Hazırda ən böyük problemimiz daxili mütəxəssisimiz olmadığı üçün xaricdən kadr dəvət edilməsidir. Bu, federasiya üçün maliyyə yükü, eləcə də kommunikasiya problemi yaradır.

Digər tərəfdən klub sistemini inkişaf etdirmək vacibdir. Klubların ən böyük problemi, müəyyən müddətə nəticə verməyən cüdoçularımızı diqqətdən kənar saxlamalarıdır. Buna Rüstəm Orucovu misal göstərə bilərəm. Üzvü olduğu klub ona sonadək dəstək verib. O, nə yeniyetmələr, nə də gənclərdə böyük nəticə verməsə də, sonralar, parlaq nailiyyətlər qazanıb. Komanda üzvlərinin cüdodankənar bacarıqlarının olması vacibdir. Baxmayaraq ki, cüdo fiziki gücə əsaslanır, o intellektual idman növüdür. İdmançının zəkası yüksək olmalıdır, beyni sürətlə işləməlidir ki, vaxtında qərar verə bilsin.

Qısamüddətli qələbələrdənsə, uzunmüddətli hədəflərə köklənməliyik. Əminik ki, cüdoçularımızın Olimpin zirvəsinə yürüşləri davamlı olacaq. Əziz cüdoçularımız, biz sizi Olimpiya zirvəsində alqışlamağa hazırıq.

***Leyla QURBANOVA***
***XQ***

# Heykəlləşən dahilərimiz, milliləşən heykəllərimiz

**Bir müddət Vətəndən uzaq düşən soydaşımız doğma yurda döndükdən sonra, adətən, Bakını gəzməyə tələsir və elə ilk baxışda gördükləri onu heyrətləndirir. Bu zaman istər-istəməz iftixar hissi keçirərək: "Maşallah, Bakı çox dəyişib və gözəlləşib" – deyir. İlk dəfə Bakıya gələn qonaqların çoxu da bu təzadlı Şərq şəhərində gördüklərindən məmnun olur.**




Azərbaycan ötən əsrdə ikinci dəfə müstəqilliyə qovuşduqdan sonra Bakı sürətlə böyüyüb. Yeni küçələr, bağlar, yaşayış massivləri, müasir otellər, konsert salonları, milli arxitekturalı göydələnlər, idman meydançaları paytaxtın simasını tanınmaz edib. Sanki, Bakı dünyanın meqa şəhərləri sırasına qoşulmağa tələsir. İndi ən uzaq ölkələrdən paytaxtımıza təyyarələr uçur. Bakı beynəlxalq ictimai-siyasi görüşlərə, idman yarışlarına məharətlə ev sahibliyi edir. Buna görə də Azərbaycan paytaxtına gəzməyə, onun Xəzərsahili məkanlarına dincəlməyə gələn əcnəbilərin sayı ilbəil çoxalır.

Amma hər bir şəhəri yaddaqalan edən yalnız onun binaları, prospektləri, parkları, tarixi abidələri, muzeyləri, sərgi salonları deyil, o məkanda yaşayıb-yaradan, dünyaya böyük kəşflər, qiymətli sənət əsərləri bəxş edən insanlardır. Bu baxımdan paytaxtımızın qonaqları Qız qalasını, Şirvanşahlar saray kompleksini, bənzərsiz İçərişəhəri və digər maddi-mədəniyyət abidələrini gəzməklə yanaşı, müxtəlif küçə və meydanları bəzəyən heykəl və abidələrə də heyranlıqla tamaşa edirlər. Çünki bu əsərlər və onların qəhrəmanları, belə demək olarsa, milli kimliyimizin "vizit kartları"dır.

Bu gün Bakı şəhərində çox sayda müxtəlif səpgili memarlıq abidəsi, heykəl, büst, barelyef və sair var. Hər biri gözəl sənət nümunəsi olmaqla yanaşı, adına yapılan həmin şəxsiyyətin, qəhrəmanın və sənətkarın mənəvi daxili aləmini özündə təcəssüm etdirir, dövrünün geyim-keçimini müəyyən qədər də olsa, baxıcıya təqdim edir. Buna görə də həmin əsərlər illərin sınağından uğurla çıxır. Başqa sözlə, zaman onları qocalda, soldura bilmir.

Yayın ən qaynar həftələri olsa da, bu günlər Bakının küçələri, Dənizkənarı parkı, müasir bağları insanla dolu olur. Xüsusilə Günəş qürub edəndən sonra paytaxtın küçə və meydanları insan selinə dönür.

Əgər qonaq şəhərin mərkəzini gəzirsə "Beşmərtəbə"nin, daha dəqiq desək, Akademik Milli Dram Teatrının qarşısındakı meydanda dərin düşüncələrı dalmış dahi şairimiz Məhəmməd Füzulinin dərin mənalı və baxımlı heykəli ilə üzbəüz qalacaq. Nə şəhərin səs-küyü, nə də qarşısında dayanıb söhbətləşən insanlar onu öz dünyasından ayıra bilmir. Məhəbbət və fikir şairi Füzuli babamız sanki özü-özünə bu beyti pıçıldayır:

- Pərişan xəlqü-aləm ahü-əfğan etdiyimdəndir.



Pərişan olduğum xəlqi pərişan etdiyimdəndir.

Ulu öndər Heydər Əliyevin adını daşıyan sarayın qarşısındakını monumental abidəsi öz əzəməti ilə seçilir. Vətəni ağır sınaqlardan uğurla çıxaran Ümummilli lider sanki yenə xalqı qarşısında çıxış edir və müstəqil respublikamızın gələcək inkişaf yollarını göstərir. Qürurla deyir: "Azərbaycanın müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir"!

XX əsrdə Azərbaycan mədəniyyətinə incilər bəxş edən sənətkarlardan biri musiqimizi dünyaya tanıdan bəstəkar, dramaturq, publisist Üzeyir bəy Hacıbəylidir. Onun musiqi və ədəbi irsi və yetişdirdiyi gənclər bu gün də Azərbaycan incəsənətini dünyada ləyaqətlə təmsil edir, uğur qazanırlar.

Əgər qonaq Dəmir yolu vağzalı qarşısından keçib, sahilə doğru addımlayırsa o, mütləq böyük dramaturqumuz Cəfər Cabbarlının və Xalq şairi Səməd Vurğunun heykəlləri ilə üzləşəcək. Cəfər Cabbarlı sanki təzadlı ömür yaşayan qəhrəmanlarının sonrakı taleləri haqqında düşünür. Üzü günbatana dayanaraq, bir əlini sinəsinə tutmuş Səməd Vurğun isə elə bil dillər əzbəri olan bu misralarını söyləyir:



**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam, məskənimsən.**
**Anam, doğma vətənimsən!**
**Ayrılarmı könül candan?**
**Azərbaycan, Azərbaycan!**

Qonaq sahil boyu gəzərək hər gün böyüyən, dəyişən və gözəlləşən Bakıya tamaşa etdikdən sonra yenidən şəhərin mərkəzinə döndükdə iki küçənin qovuşduğu kiçik meydanda heykələ dönmüş xan qızı Natəvanla rastlaşacaq. Taleyi dərdlə, nisgillə yoğrulan Xurşudbanunun bu duruşu qonağı kövrəldəcək. Qoşa qala qapısı ilə üzbəüz bağda poeziyamızın Günəşi Şeyx Nizamı vüqarla dayanıb. Nizamı Gəncəvi sanki Ədəbiyyat Muzeyinin lociyalarındakı (seyvanlarındakı) digər klassiklərimizlə söhbətləşir.

Qala divarları qarşısındakı bağda isə bənzərsiz şairimiz, millətin dərdlərindən beli bükülən Mirzə Ələkbər Sabir oturub. O, gəlib-gedənlərə baxır, olmuşları və olacaqları saf-çürük edir.

Milli Elmlər Akademiyası ilə üzbəüz bağda böyük şair, dramatur-filosof, 37-ci ilin qara terrorunun güdazına gedən "hər kəsin bir eşqi, bir Allahı var, mənim Tanrım gözəllikdir, sevgidir", – deyən Hüseyin Cavidin monumental heykəli bu ərazidən keçənlərin diqqətini cəlb edir. İnşaatçılar prospekti ilə Nəriman Nərimanov küçəsinin kəsişdiyi ərazidəki bağçada isə nakam taleli Mikayıl Müşfiq qərar tutub. Gözləri yol çəkən şair, elə bil, Vətənin daha xoş günlərini soraqlayır:

**Mənim könlüm deyir ki,**
**Hələ bunlar nədir ki...**

Paytaxtımızdakı heykəllər, təbii ki, bunlarla məhdudlaşmır. Məsələn, şəhərin mərkəzindəki bağda dramaturgiyamızın banisi, şair, filosof Mirzə Fətəli Axundovun, İçərişəhərdə qəzəlxan Əliağa Vahidin, böyük binaların əhatəsində dayanmış yazıçı və dövlət xadimi Nəriman Nərimanovun, Milli Bankın köhnə binasının arxasındakı kiçik bağça iki cahana sığmayan İmadəddin Nəsiminin və başqalarının heykəlləri də küçə və meydanlarımızı bəzəyir. Qonaq hər prospekdə, meydanda heykəllərlə üzləşdikcə ona elə gəlir ki, bu abidə və heykəllər də Bakını gəzməyə çıxıb.

Yaxın keçmişimizdə Bakıda elə abidə və heykəllər də vardı ki, onlar zamanın sınağından çıxa bilmədilər. Məsələn, vaxtı ilə indiki 20 Yanvar meydanında "XI qırmızı orduya" qoyulmuş abidə kompleksi, "Sahil" metrosu qarşısındakı bağdakı 26 Bakı komissarlarının adını daşıyan abidə-kompleksi, illərlə Bakının ən hündür yerində dayanan bolşevik Sergey Kirovun, proletariata işıqlı gələcək vəd etmiş Karl Marksın, xalqımızın qatı düşməni Stepan Şaumyanın, bolşeviklər Məşədi Əzizbəyovun, Qəzənfər Musabəyovun, Sərdar Bünyadovun və başqalarının heykəlləri tarixin arxivinə atıldılar. Çünki onlar qəhrəmanları, belə demək olarsa, xalqımızın tarixində qara ləkələrdir. Tarix isə ona vurulan yamağı götürmür və heç bir xəyanəti bağışlamır.

***Səməd MƏLİKZADƏ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 149 (30553) 18 iyul 2024-cü il, cümə axşamı

İDMAN

## Qubada beynəlxalq basketbol turniri

**Qadınlar arasında keçirilən 3x3 basketbol üzrə Qadın Seriyasının Quba mərhələsində iştirak edəcək komandaların qrupları və oyun təqvimləri bəlli olub.**




Azərbaycan Basketbol Federasiyasından bildirilib ki, yarışda 8 komanda 2 qrupda mübarizə aparacaq. A qrupunda "Baku Fleyms", Avstraliya, Niderland, Çin U-24, B qrupunda isə Çexiya Filippin, İran və "Düsseldorf Zoos" (Almaniya) komandaları yer alacaqlar.

Quba mərhələsinin açılış oyunu iyulun 20-də "Baku Fleyms" və Niderland yığması arasında baş tutacaq. Qarşılaşma saat 16:30-da start götürəcək.

Qeyd edək ki, Dünya Seriyasının "Quba" mərhələsi iyulun 21-dək davam edəcək.

## Qadın futbolçularımız "pley-off"a yüksəlib

**Qadın futbolçulardan ibarət Azərbaycan millisi daha bir tarixi qələbə qazanıb.**



Komandamız Avropa çempionatının seçmə mərhələsində ilk dəfə pley-offa yüksəlib. B Liqasının 1-ci qrupunda mübarizə aparan yığma son oyunda İsveçrə seçməsinə 0:3 hesabı ilə uduzaraq sonuncu olsa da, pley-offa vəsiqə əldə edə bilib.

Bu raundda ümumilikdə 28 komanda final mərhələsinə son 7 vəsiqə uğrunda mübarizə aparacaq. İki raunddan ibarət olan pley-off mərhələsinin püşkü iyulun 19-da atılacaq. Əvvəlcə 28 komanda 14 cütlük təşkil edəcək. Ardınca isə qalib yığmalar Avropa çempionatına son 7 vəsiqənin sahibini müəyyənləşdirəcəklər.

Azərbaycan millisi püşkatmada səpələnməmişlər səbətində yer alacaq. Yığmanın potensial rəqibləri Portuqaliya, Şotlandiya, Uels, Serbiya, Ukrayna və Şimali İrlandiya kollektivləridir.

Qeyd edək ki, qadınlar arasında Avropa çempionatı 2025-ci il iyulun 2-dən 27-dək 16 ölkə yığmasının iştirakı ilə İsveçrədə keçiriləcək.

## Badmintonçularımız 2 bürünc qazanıblar

**Azərbaycanın yeniyetmə badmintonçuları Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq turnirdə 2 kateqoriya üzrə bürünc mükafat qazanıblar.**




"İstanbul U-17 Open" turnirində 3 qız, 2 oğlan badmintonçu ilə qatılan komanda Türkiyə, Serbiya, Fransa, Bolqarıstan, İngiltərə, Albaniyanı təmsil edən 17 yaşadək badmintonçuların turnirində oğlanların qoşa kateqoriyasında bürünc medala layiq görülüb.

Daha bir bürünc medal 13 yaşadək badmintonçuların qarışıq qoşa yarışında qazanılıb. Yeniyetmə badmintonçu Ömər Teymurlu Bolqarıstan təmsilçisi Kalina Koseva ilə birgə müvafiq kateqoriyada ardıcıl olaraq 3 qələbə qazanaraq turnirin yarımfinalına kimi irəliləməklə mükafatçılar sırasında yer almağı bacarıblar.

***L.QURBANOVA***
***XQ***


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Gövdədə yetişən üzüm

***Braziliyada "Jabuticaba" – Üzüm ağacı adlanan bitki onu görən hər kəsi heyran edir. Bu ağacın digərlərindən fərqi bənövşəyi rəngdə olan meyvələrinin budaqlarda deyil, ağacın gövdəsində bitməsidir.***



Yalnız Cənubi Amerikada rast gəlinən bu maraqlı ağac növünə, xüsusilə, Paraqvay, Argentina və Braziliyada rast gəlinir. Ağacın gövdəsində əvvəlcə bənövşəyi çiçəklər açır və bu çiçəklər yavaş-yavaş böyüyərək üzümə bənzər meyvəyə çevrilir. Çiyələkdən bir qədər böyük olan bu meyvələri uzun müddət saxlamaq mümkündür.

Onu da xatırladaq ki, 2 ildən bir bar verən bu ağacın meyvəsindən mürəbbə, marmelad və meyvə şirəsi hazırlanır. Sağlamlıq üçün faydalı olduğuna inanılan Jabuticaba bitkisinin bir sıra xəstəliklərə də xeyri vardır. Belə ki, ağacın meyvələri badamcıq, astma və ishal zamanı qaynadılır və müalicə məqsədi ilə istifadə edilir.

***S.FİDAN***
***XQ***

Qayıdış töhfələri

# Qarabağda atları yəhərləyirlər

## Xocalının sərrac yetirməsi bu qədim el sənətini məharətlə yaşadır

**Salxım-salxım dan yelləri əsən zaman ova çıxanda, yurduna göz dikən mənfur yağı qapıya dayananda atlar ər-ərənlərimizlə yanaşı durub, onlara qol-qanad olub. Babalarımız "at igidin qardaşıdır", "at döyüşdə qanaddır", "at muraddır" deyiblər. Xalqımız atı ər namusu sayıb.**

Bu vəfalı heyvanlar türk igidlərinin dostuna, sirdaşına çevrilib hər zaman. Ona görə də at sahibi atının qeydinə qalıb. Özü ac qalsa da, birinci onu yemləyib, vaxtında nalladıb, sığallayıb, tumarlayıb, yəhərini, sinəbəndini bəzəyib. Bəzədilmiş atlar toylarımızın, şənliklərimizin sevincinə çevrilib, sahibini qürrələndirib.

Məhz ata olan bu sevgi qədim el sənətlərimizdən olan sərraclığın yaranmasına, inkişaf etməsinə rəvac verib. Azərbaycanımızın dilbər guşələrindən olan Qarabağda da tarixən daşişləmə, dulusçuluq, xalçaçılıq, boyaqçılıq, zərgərlik, misgərlik, qalayçılıq, nalbəndlik kimi sərraclıq da nəsildən-nəslə keçərək dövrümüzədək gəlib çatıb.

Bu gün ölkəmizdə həyatını sərraclıq sənətinə bağlayanlar azalsalar da, onların atlar üçün hazırladığı yəhərlərə, cilovlara, yüyənlərə, sinəbəndlərə, quşqunlara, qamçılara, xurcunlara tələbat gündən-günə artmaqdadır.



Sözügedən qədim sənət növünü yaşadanlardan biri də Xocalı rayonunun Kosalar kənd sakini Məhəbbət Ağayevdir. 41 yaşı olan Məhəbbət usta 30 ildən artıqdır ki, sərraclıqla məşğul olur. Sevgi ilə əziyyətinə qatlaşdığı bu sənətin sirlərini atası Vahid kişidən öyrənib. Məcburi köçkünlüyün ən ağır günlərində belə sərraclıqdan üz çevirməyiblər. Bu sənət ailənin əsas dolanışıq yeri olub. Kosalar kəndində yaşayan zaman Vahid kişi at nallamaqla, yəhər-yüyən düzəltməklə məşğul olub.

Torpaqlarımız mənfur ermənilər tərəfindən işğal edildikdən sonra məcburi köçkün kimi Gəncə şəhərinin Hacıkənd qəsəbəsində məskunlaşıblar və sərraclığı burada davam etdiriblər. 10 yaşımdan, necə deyərlər, əli iş tutandan atasının yanında sərraclığın sirrlərini öyrənməyə başlayan Məhəbbət o günləri belə xatırladı: "Öyrəndikcə daha çox maraq yaranırdı məndə. Məqsədim həm ata-baba sənətini yaşatmaq idi, həm də ailəmizin dolanışığı sərraclıqdan qazandığımızdan çıxırdı. Getdikcə bu işin inceliklərini daha çox mənimsədim. Sonra qardaşıma, oğluma da öyrətdik. Beləcə, hazırda ailəlikcə, yəni qardaşım Qismət, bacımın yoldaşı Aftandil və oğlum Vahidlə birlikdə işləyirik".

Bəli, Xocalıdan olan bir ailə qədim el sənətimizi unudulmağa qoymur, ona yenidən can verir. Məhəbbət usta bildirir ki, mükəmməl sərrac olmaq üçün, bəlkə, bir ömür də bəs etməz. Çünki nə qədər öyrənsən də görürsən ki, işə yeni çalarlar qatmaq, daha gözəl, rahat və bəzədilmiş yəhər dəsti düzəltmək mümkündür: "Bu işdə ən mühüm olan isə sənətə sevgidir. Sevgi olmasa, sənətin əziyyətinə qatlaşmaq da asan olmaz. Çox istərdim ki, gənclərdə sərraclığa həvəs yaransın, öyrənmək üçün müraciət edənlər olsun. Olarsa, mən böyük həvəslə onlara bu sənəti təmənnasız öyrədərəm".

Məhəbbət dedi ki, torpaqlarımızın erməni işğalından azad edilməsindən



sonra öz təsərrüfatını götürüb Laçın, Kəlbəcər yaylaqlarına üz tutanlar az qala iki dəfə çoxalıb. Köç zamanı çobanlar, təsərrüfat sahibləri ağır tərəkəmə həyatında ən yaxın köməkçilərindən olan atlarının da qayğısına qalır, onları nalladır, yəhər-yüyənlərini yeniləyirlər. Bu səbəbdən əsasən yazda və payızda elat dağlardan geri qayıdan zaman sərrac Məhəbbətin qapısını döyənlər də çoxalır.

Usta bildirdi ki, yəhərin hazırlanması bir neçə mərhələdən ibarətdir. Əvvəlcə dəqiqliklə dəmirdən olan yəhər gövdəsini düzəldirlər. Bu zaman ölçülərin dəqiqliyi ona görə gözlənilməlidir ki, yəhər atın belinə düzgün otursun. Əks halda, el arasında deyilən kimi, atın "belini vurar", yəni yara edər. Sonra isə xüsusi tikiş maşınlarından istifadə etməklə keçə, gön-dəri məhsullarından, müxtəlif qalınlıqda qayışlardan yəhərin digər hissələri, aksesuarlar hazırlanır.

Öyrəndik ki, materialların əksəriyyəti xarici ölkələrdən, xüsusilə İrandan və Türkiyədən gətirilir. Bu isə təbii ki, qiymətlərə təsir edir, bəzən material qıtlığının yaranmasına səbəb olur. Halbuki həm keçənin, həm də aşılanmış keyfiyyətli dərinin yerli istehsalı sərraclıqla yanaşı, bir sıra sahələrin də inkişafına şərait yarada bilər. Məsələn, ötən əsrin 90-cı illərində Gəncədə keçə zavodu fəaliyyət göstərib. Ancaq zavod yanıb, bununla da fəaliyyəti dayandırılıb və daha sonra bərpa edilməyib.

Yəhərlərin hazırlanması müddəti də, qiymətləri də fərqlidir. Bəzən sənətkar ailəsi əl-ələ verib bir günə iki, hətta üç yəhər də hazırlayırlar, bəzənsə xüsusi sifarişlə, bər-bəzəkli yəhərlərin düzəldilməsi bir neçə gün vaxt aparır. Qiymətləri tənzimləyən də elə bu şərtlərdir. Yerli dəridən, dəriəvəzedici materialdan hazırlanan sadə yəhər dəstinin qiyməti 100 manatadır. Ancaq daha çox tələb 200–300 manatlıq yəhərlərədir. Təbii ki, öz xüsusi cins atlarını sevən, onların daha gözəl görünməsini istəyənlər qiyməti 700–800 manata olan xüsusi yəhərlər sifariş edirlər. Sərrac deyir, bu vaxta qədər hazırladığım ən bahalı yəhər dəstinin qiyməti 1200 manat olub.

Müştəri qıtlığı yoxdur sərrac ailəsinin. Məhsullarına tələb o qədər çoxdur ki, bəzən sifarişləri çatdırmaq üçün gecələr də işləməli olurlar. Yəhər dəstlərinin satışı əsasən Gəncədə, Ağcabədidə, Bərdədə, Beyləqanda, Qazaxda, Tovuzda həftə sonları təşkil edilən "mal bazarları"nda həyata keçirilir. Son dövrlərdə sosial şəbəkələrin xidmətlərindən də yararlanırlar. İnternet vasitəsilə ölkəmizin əksər rayonlarından, hətta Naxçıvandan sifarişlər alır. Bu isə onunla bağlıdır ki, at saxlayanlar çoxalıb, ancaq sərraclıqla məşğul olanlar azdır.

Məhəbbət usta Qarabağa qayıdacağı, öz sənətini doğma yurdunda davam etdirəcəyi günü səbirsizliklə gözləyir. Deyir, bu arzumuzun reallaşması ilə bağlı artıq aidiyyəti qurumlara müraciət etmişik: "Allah cənab Prezidentimizi qorusun! Onun rəhbərliyi altında Xocalıya yenidən həyat qayıdır. Biz illər boyu bu günlərin həsrəti ilə yaşamışıq. İndi isə ən böyük arzum gedib orada sərraclıqla məşğul olmaq, məşhur Qarabağ atları üçün milli ornamentlərlə bəzədilmiş gözəl yəhərlər hazırlamaqdır".

Gözəl arzudur. Biz də qədim el sənətini yaşadan sərrac Məhəbbət Ağayevlə elə bu arzusunun tezliklə çin olması diləyi ilə sağollaşırıq. Öz yurduna qayıdan elimizin-obamızın Məhəbbət kimi sənətkarlara ehtiyacı çox olacaq.

Qoy Qarabağda Məhəbbətin yəhər düzəltdiyi atların kişnərtisi bir daha düşmənlərimizə bu yurdun övladlarının ulu dağlara qayıdıb sönmüş çıraqlarını yandırdıqlarını çatdırsın!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

## Abşeronda isti, bölgələrdə yağış və duman davam edir

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 18-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.***



Səhər yarımadanın bəzi yerlərində qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 21-26° , gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu , nisbi rütubət gecə 70-80 , gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 31-36° , dağlarda gecə 12-17° , gündüz 18-23° isti olacaq.

***Q.QASIMOV***
***XQ***


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3130
SİFARİŞ 1572
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00